

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan D-8 təşkilatının üzvü seçilib



6

SƏS

№ 235 (7160)

20 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Nikbin yanaşma və KONSEPTUAL BAXIŞ



2

# Terrorizmin dəhşətləri




9

## Dünyada olan maraqlı Yeni il ənənələri



11

## Qədim tarixi yurdumuz - Qərbi Azərbaycan



6

## Bakı kəndlərinə niyə yeni avtobuslar verilmir?



14

## Həmrəyliyin beynəlxalq mənzərəsi: bacardıqmı?



15

## Möcüzə deyil, bəs nədir?



8

# Nikbin yanaşma və KONSEPTUAL BAXIŞ



Ölkə rəhbərinin, Azərbaycan Prezidentinin verdiyi müsahibələr hər zaman böyük marağa səbəb olub və bu dəfə də cənab İlham Əliyevin Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsi nikbin yanaşmalar fonunda diqqəti cəlb edib. Xüsusən də, dövlət başçımızın öz müsahibəsində səsləndirdiyi tezislərin məhz regionda və dünyada mövcud vəziyyətə konseptual baxışı, eləcə də gələcək dəyişikliklərin perspektivlərini əks etdirdiyi üçün böyük maraq doğurması, eləcə də rəğbətlə qarşılanması əlbəttə ki, başadüşüləndir və məntiqidir.

## Azərbaycana eyni zamanda həm Qərbdə, həm Şərqdə, həm də Rusiyada güvənildiyini ölkə rəhbərimiz tam zamanında və yerində xatırladıb

Ölkələrimiz arasında, daha dəqiq desək, Rusiya və Azərbaycan arasında münasibətlərin vəziyyətini yüksək qiymətləndirən dövlət başçımızın, məhz liderlərin müdrik yanaşması sayəsində NATO ilə Rusiya arasında müharibə riskinin olmayacağına da əminlik ifadə etməsi nikbin, eləcə də ən doğru yanaşma olaraq yüksək qiymətləndirilib. İstər Qərbdə, istərsə də Şərqdə ölkəmizin tamamilə müstəqil oyunçu kimi qəbul edildiyinə, yəni, özünəməxsus statusuna əmin olan ölkə rəhbərimizin gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə biləcəyinə də əminliyi əlbəttə ki, ancaq rəğbətlə qarşılanmalı idi və belə də oldu.

"Həm Qərbdə, həm Rusiyada və həm də Şərqdə güvənilən ölkələr heç də çox deyil", deyə bildirən cənab Prezidentin öz müsahibəsində çox maraqlı və lazımlı məqamlar barədə xatırlamalar etməsi tamamilə yerinə düşüb. Daha dəqiq desək, ölkə rəhbərimiz Azərbaycana eyni zamanda həm Qərbdə, həm Şərqdə, həm də Rusiyada güvənildiyini tam zamanında xatırladıb və heç şübhəsiz ki, bunun nə demək olduğunu nəinki Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyov, eləcə də Rusiya ictimaiyyəti də, ABŞ cəmiyyəti də, ümumiyyətlə, bütövlükdə dünya ictimaiyyəti də çox yaxşı başa düşüb. "Bakı əvvəllər də Rusiya və ABŞ hərbi rəhbərliyinin, eləcə də NATO nümayəndələri ilə görüşlərin keçirildiyi məkan olub", deyə ölkə rəhbərimizin xatırlatması dövlətimizin, dövlət rəhbərimizin konseptual baxışını, məsələyə nikbin yanaşıldığını təsdiqləyən məqam olaraq, heç də diqqətdən yayına bilməz.

## Təkcə bizim üçün deyil, elə məhz Türkiyə ictimaiyyəti, bütövlükdə türk dünyası üçün qürurverici cavab

Dövlət başçımızın məhz Rusiya ictimaiyyəti üçün maraqlı olan və Dmitri Kiselyov tərəfindən səsləndirlən suala da çox lakonik bir cavab verməsi həqiqətən də hər birimiz üçün qururvericidir. Ölkə rəhbərimizin, "Türkiyə ilə Azərbaycan arasında Müttəfiqlik Bəyannaməsində məhz təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd olduğundan Azərbaycanda türk hərbi bazasına ehtiyac yoxdur", deyərək, ən məntiqi şəkildə fikrini ifadə etməsi təkcə bizim üçün deyil, elə məhz Türkiyə ictimaiyyəti, bütövlükdə türk dünyası üçün də qürurverici hesab olunur. Əvvəla ona görə ki, belə bir dəqiq, lakonik, həm də əhatəli cavab iki qardaş ölkə, Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətlərinin mahiyyətini bildirir. Digər tərəfdən də, ölkə rəhbəri həmin cavabla iki qardaş ölkənin məhz xarici təcavüz zamanı bir-birinin köməyinə gəlməyi öhdəsinə götürdüyünü diqqətə çatdırır, xatırladır və həm də bildirir ki, Türkiyə və Azərbaycanın birliyi, müttəfiqliyi üçüncü ölkələrin təhlükəsizliyini qətiyyən təhdid etmir.

Məhz Türkiyə ilə Azərbaycan arasında olan qardaşlıq münasibətlərini xüsusilə diqqətə çatdıran ölkə rəhbərimizin fikirləri əlbəttə ki, rəğbətlə qarşılanmaya bilməzdi və təkcə Azərbaycan deyil, həm də qardaş ölkə, Türkiyə vətəndaşlarının dövlət başçımızın ifadələrini yüksək qiymətləndirmələri tamamilə məntiqidir. Ölkə rəhbərimizin bu fikirlərinin hazırda Türkiyəyə məxsus mətbuat səhifələrində böyük rəğbətlə qeyd olunmasını görmək, sözsüz ki, hər bir vətəndaşımız, hər bir Azərbaycan vətəndaşı üçün çox dəyərlidir, həm də çox vacibdir. Çünki bütün bunlar dövlətlərimiz, vətəndaşlarımız arasında olan birliyin, ölkə rəhbərimizə olan sayğının, ehtiramın bariz nümunəsidir.

## Ermənistanla bağlı məsələyə aydınlıq gətirilməsi, əslində, çox ciddi mesaj sayılır

Cənab Prezidentin bu dəfə də öz müsahibəsində Ermənistanla bağlı məsələyə aydınlıq gətirməsi, konseptual baxışı bütövlükdə erməni cəmiyyəti üçün, eləcə də dünya ictimaiyyəti üçün bir mesaj da sayılır. Fransa, Hindistan və ABŞ-dan Ermənistana hücum silahlarının verilməsinin məhz Azərbaycanın təhlükəsizliyini təhdid etdiyini və İrəvanda revanşist əhval-ruhiyyədən xəbər verdiyini bildirən cənab Prezident İlham Əliyev həqiqətən də çox ciddi mesajlar ünvanlayıb. Əslində, bu mesajların arxasında hansı məqamların olduğunu elə erməniler özləri də, onlara silah verənlər də yaxşı başa düşüblər. Bu baxımdan da ölkə rəhbərimizin Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində məhz Ermənistanla bağlı dedikləri tamamilə yerinə düşüb.

Azərbaycanın 2025-ci il üçün müdafiə büdcəsində rekord artım olduğunu ölkə rəhbərimizin xatırlatması əlbəttə ki, Ermənistanın militarist kursuna əsl doğru cavab sayılır. Silahlı təxribat olacağı təqdirdə, Ermənistana heç kimin kömək etməyəcəyini bildirən cənab İlham Əliyev nə 2020-ci ildə, nə də 2023-cü ildə onlara kömək edilmədiyini revanşist qüvvələrə xatırlatmaqla, ən ciddi mesajlar vermiş olub. Əslində, bu fikirlərlə onlara xəbərdarlıq edilib ki, təxribatlara əl atacaqları təqdirdə yenə də eyni ilə 2020-ci ildə və 2023-cü ildə olduğu kimi, heç bir köməklik görməyəcəklər və böyük fəlakətlərlə qarşılaşmalı olacaqlar. Yəni, diplomatik ustalıqla bir daha nəzərə çatdırılıb ki, ölkəmizə qarşı hərhansı qəbulolunmaz hərəkətə görə revanşistlər özləri cavab verməli olacaqlar. Bu həm də Rusiyanın özü üçün bir xatırlatma hesab olunur və heç şübhəsiz ki, ruslar özləri də nəyə eyham vurulduğunu yaxşı başa düşürlər. Başa düşürlər ki, cənab Prezident İlham Əliyev elə indidən bir çoxlarına xəbərdarlıq edir.

Qarabağ erməniləri ilə bağlı sualı cavablandıran cənab İlham Əliyev qısaca olaraq, Bakının 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatından əvvəl reinteqrasiya planını ictimaiyyətə necə təqdim etməsindən danışmaqla və buna erməni ictimaiyyəti tərəfindən heç bir reaksiya verilmədiyini diqqətə çatdırmaqla, həm məsələnin mahiyyətini bütün dünya ictimaiyyətinin diqqətinə çatdırmış olub, həm də "erməni dəyirmanına su tökmək" niyyətində olanlara da bir mesaj verib. Ermənistandan deportasiya edilmiş 300 minə yaxın azərbaycanlının probleminin müzakirə edilməsinin vacibliyini vurğulayan ölkə rəhbərimiz qarşı tərəfin hələ də cavab vermədiyini də əbəs yerə vurğulamayıb. "Biz hələ də Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiya prosesinə necə baxdıqları ilə bağlı cavab almamışıq. Düşünürəm ki, bu iki proses paralel getsə, bu, dünya üçün daha da yaxşı sosial atmosfer yaradacaq. Çünki sülh təkcə sülh müqaviləsinin imzalanması deyil, həm də ictimai konsensusdur", deyərək, yenə də siyasi iradə nümayiş etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev bütövlükdə dünya ictimaiyyətinə tam zamanında və yerində mesajlar verib.

## Güclü siyasi iradəyə sahib olduğunu, dövlətimizin doğru yolda olduğuna əminliyini açıqlayan ölkə rəhbərimiz daha bir diplomatik uğura imza atıb

COP29 iqlim konfransı ilə bağlı digər mühüm söhbət mövzusu həqiqətən də haqlı olaraq, ölkə rəhbərimizin konseptual baxışı kimi qiymətləndirilib. Əldə olunmuş tarixi razılaşmaları, eləcə də bu sammitin yüksək səviyyədə təşkilini xüsusilə qeyd edən dövlət başçımızın, iqlim konfransı kontekstində Amerika və Fransanın aparıcı nəşrləri tərəfindən ölkəmizə qarşı həyata keçirilən kampaniyadan da bəhs etməsi daha bir diplomatik qələbədir. "Çətinlik yaratmadı, sadəcə olaraq, ikrah hissi yaratdı", deyə bəyan edən Azərbaycan Prezidenti elə məhz bu lakonik ifadə ilə, cəmi bir cümlə ilə bu kampaniyanın təsirsizliyini, daha doğrusu, mahiyyətsizliyini və cılızlığını açıq-aşkar şəkildə bildirməklə, daha bir diplomatik gediş edib və bunu ölkəmizin əleyhində olanlar daha "yaxşı" başa düşüblər. Ümumiyyətlə, ölkəmizin məhz beynəlxalq müstəvidə rolunu, eləcə də dövlətimizə mane olmaq istəyənlərin mahiyyətini çox aydın şəkildə ortaya qoyan cənab İlham Əliyev bu dəfə də öz müsahibəsində güclü siyasi iradəyə sahib olduğunu, dövlətimizin doğru yolda olduğuna əminliyini və anti-Azərbaycan qüvvələrin rəzil vəziyyətini cəsarətlə açıqlamaqla daha bir diplomatok uğura imza atmış olub.

Bakının anti-müstəmləkəçilik gündəmi barədə danışan cənab İlham Əliyev bunun sadəcə Fransanın anti-Azərbaycan siyasətinə cavab olmadığını və bunun daha dərin xarakter daşıdığını vurğulamaqla, rəqiblərinin əsl simasını, daha doğrusu, simasızlığını göstərmiş olub. Makronun prezidentliyi dövründə Beşinci Respublikanın xarici siyasət fiaskosunun xoşagəlməz mənzərəsini təqdim edən Ali Baş Komandan, cənab Prezident İlham Əliyev Afrikadan tutmuş Gürcüstana qədər müxtəlif regionlarda bir-birinin ardınca Fransanın uğursuzluqlarını qeyd etməklə, əslində, çox böyük ismarıclar verib və rəsmi Parisə bir növ yerini göstərib. Ümumiyyətlə, cənab Prezidentin bu dəfəki müsahibəsi də çox təsirli olub desək, yanılmarıq və haqlı olduğumuza da əminik. Əminik ki, ölkə rəhbərimizin cavabları regionun gələcək inkişafı ilə bağlı nikbin əhval-ruhiyyə doğurub, dövlətimizin və dövlət başçımızın məhz regionda və dünyada mövcud vəziyyətə konseptual baxışı maraqla qarşılanıbdır.

***İnam Hacıyev***

# Bələdiyyə seçkiləri yeni uğurlar vəd edir



Azərbaycan növbəti taleyüklü tədbir ərəfəsindədir. Bu da cəmiyyətdə yeni fəallığın, diskusiyaların, sağlam müzakirələrin aparılmasına yol açıb. Artıq bələdiyyə seçkilərinə hazırlıqla bağlı iddialı şəxslər ərazilər üzrə bələdiyyələrə namizədliklərini irəli sürürlər. Məlum faktdır ki, Mərkəzi Seçki Komissiyasının 2024-cü il 27 noyabr tarixli qərarı ilə bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-na təyin edilib. Bu, indiyə kimi respublikamızda keçirilən 6-cı əsas bələdiyyə seçkisi olacaq. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov keçirilən iclasda bildirib ki, indiyə qədər 6 min 218 nəfərin bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülüb: "Hələ ki, qanun pozuntusu ilə bağlı müraciət daxil olmayıb. 263 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 3 min 524 nəfərə imza vərəqələri verilib və 763 nəfər imza vərəqələrini qaytarıb. Bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair təşkil olunar seminarda isə Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov bildirdi ki, 2025-ci il yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərində 685 bələdiyyə üzrə 8 min 71 üzv seçiləcək: "Bu seminar proseslərində onları maraqlandıran məqamları müzakirə edəcəyik. Bir neçə ay əvvəl biz maarifləndirmə layihəsi həyata keçirmişik. Budəfəki layihə fərqli formatda hazırlanıb. Əvvəlki seçkilərdə əldə olunan təcrübəyə geniş yer verəcəyik. Məlumdur ki, bələdiyə seçkilərində 685 bələdiyyə üzrə 8 min 71 üzv seçiləcək. Ümid edirik ki, bu gün keçirilən seminar məhsuldar olacaq". Rövzət Qasımov onu da qeyd edib ki, bu bələdiyyə seçkiləri bir çox məqamlara diqqət yetirdikdə, əvvəlkilərdən fərqlənir: "Seçkidən öncə bələdiyyələrin fəaliyyətini daha təkmil həyata keçirməsi üçün addımlar atıldı. Burada fərqli məqamlardan biri də siyasi partiyaların daha mütəşəkkil qaydada bu seçki prosesinə qoşulma niyyətidir. 13 siyasi partiya öz səlahiyyətli nümayəndəsini MSK-da qeydiyyatdan keçirib və onların seçkidə namizəd kimi qeydə alınması üçün dairə seçki komissiyalarına müraciət edib".

## MSK yüksək seçki hazırlığı təşkil edir

Söz yox ki, təşkil edilən bələdiyyə seçkiləri daha azad və demokratik keçiriləcək. Çünki əvvəlki seçkilərdə qazanılan təəccrübə imkan verir ki, daha təkmil və yeni dəyişikliklər, müasir çağırışlara uyğun seçki təşkil edilsin. İnsanların fəallığı, seçkilərə marağı, namizədlərin sayının kifayət qədər çox olması da seçkilərin ədalətli, xalqın maraqlarına, dövlətin istəyinə uyğun keçiriləcəyindən xəbər verir. Bu istiqamətdə MSK yüksək, təqdirə layiq işlər görür. Demək olar ki, hər gün MSK-nın xətti ilə toplantılar, maarifləndirici xarakterli görüşlər, seminarlar təşkil olunur. MSK buletlər, kitabçalar hazırlamla kifayətlənməyib, insanların məlumatlandırılması üçün bildirşlər də hazırlayıb. Bu barəd məlumat verən MSK sədr müavini Rövzət Qasımov bildirib ki, 2025-ci il yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 6 milyon 52 min 701 ədəd müəyyən edilib. Sədr müavini qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin mətni, forması, sayı və hazırlanması qaydası təsdiq edilib.

## Bələdiyyə seçkilərində necə iştirak etmək olar?

Cəmiyyətin inkişafına təkan verən əsas amillərdən biri də bələdiyyə seçkilərdir. Ölkəmizdə bələdiyyə seçkilərinin həyata keçirilməsinin əsas hüquqi bazasını ölkə Konstitusiyası, 2 iyul 1999-cu ildə qəbul olunmuş "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu, 2003-cü ildən isə Azərbaycan Respublikasının Seçki Məcəlləsi təşkil etmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə müvafiq olaraq Azərbaycanda yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr seçkilər əsasında yaradılır. Dahi Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə qayıdışından sonra həyata keçirilən demokratik islahatların davamı olaraq Azərbaycan Respublikasında yerli özünüidarəetmə institutu - bələdiyyələr yaradıldı və 1999-cu ilin dekabr ayında bələdiyyələrə ilk seçkilər keçirildi. Qısa müddət ərzində bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılaraq bələdiyyələrə geniş səlahiyyətlər verildi.



"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə uyğun olaraq, bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyə orqanları dedikdə isə bələdiyyə tərəfindən yaradılan, yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyəti verilən və dövlət orqanları sisteminə daxil olmayan orqanlar başa düşülür.Bələdiyyələr, bir qayda olaraq bələdiyyə iclasından, daimi və başqa komissiyalardan və icra orqanından ibarətdir. Bələdiyyənin hər bir orqanının fəaliyyət qaydası "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bələdiyyələr nümayəndəli orqan kimi seçkilər əsasında yaradılır. Bələdiyyələrə seçkilərin keçirilməsi qaydası 2003-cü il 27 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilir. Seçki Məcəlləsinin VII bölməsi (210-246-cı maddələr) bələdiyyə seçkilərinə həsr olunmuşdur.

Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvlərini ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə seçirlər.

Seçkilər günü 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının bələdiyyələrə üzv seçmək hüququ - aktiv seçki hüququ vardır. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Seçki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, aktiv seçki hüququna malik olan hər bir vətəndaşın konstitusiya ilə müəyyən edilmiş bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə bələdiyyə üzvü seçilmək hüququ - passiv seçki hüququ vardır. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxslərin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə görə məhkum olunmuş şəxslərin, ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşlarının (ikili vətəndaşlığı qalanadək), xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikası vətəndaşlarının (həmin öhdəliklərə xitam verilənədək) bələdiyyə üzvü seçilmək hüququ yoxdur.Hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə), hakimlər (hakim olduqları müddətdə), dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə), din xadimləri (peşəkar din fəliyyəti ilə məşğul olduqları müddətdə) bələdiyyə üzvü ola bilməzlər. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır. Bələdiyyə üzvlərini seçicilər bilavasitə seçirlər. Seçicilər şəxsən və gizli səs verirlər. Seçkilərdə seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

Ölkəmizdə qanunvericiliyə əsasən bələdiyyə üzvləri aşağıdakılı qaydalar üzrə seçilirlər:

**1)** Əhalisi 500-dən az olan ərazilərdə - 5 bələdiyyə üzvü;

**2)** Əhalisi 500-dən 999-dək olan ərazilərdə - 7 bələdiyyə üzvü;

**3)** Əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə - 9 bələdiyyə üzvü;

**4)** Əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə - 11 bələdiyyə üzvü;

**5)** Əhalisi 10.000-dən 19.999-dək olan ərazilərdə - 13 bələdiyyə üzvü;

**6)** Əhalisi 20.000-dən 49.999-dək olan ərazilərdə - 15 bələdiyyə üzvü;

**7)** Əhalisi 50.000-dən 99.999-dək olan ərazilərdə - 17 bələdiyyə üzvü;

**8)** Əhalisi 100.000-dən 299.999-dək olan ərazilərdə - 19 bələdiyyə üzvü.

Namizədlərin Dairə Seçki Komissiyaları tərəfindən qeyd alınması üçün lazım olan seçici imzası isə ərazilər və əhalinin sayına görə dəyişir. Ümumilikdə 15-150 seçici imzası toplamaqla namizəd olaraq qeydə alınmaq mümkündür. Yəni görünən ondan ibarətdir ki, dövlət qanunvericilik aktları əsasında hər bir namizədə daha sadə və rahat şəkildə seçki marafonuna qoşulmağa imkan yaradır. Hətta qeydə alınan namizədin təbliğat-təşviqat kampaniyası dövründə özünün seçki platformasını ödənişsiz əsaslarla qurmaq üçün KİV-lər müəyyənləşdirib. Bu barədə məlumat verən MSK-nın ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, yanvarın 6-dan start veriləcək təbliğat kampaniyasında ölkə üzrə bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına, o cümlədən də - İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Azərbaycan" qəzeti, - "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski raboçi" qəzeti ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq. Eyni zamanda digər televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları bələdiyyə seçkilərinin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək (2024-cü il dekabrın 28-dək) dərc etməlidirlər.

## YAP Cənubi Qafqazın lider partiası olaraq seçkilərdə qalib gələcək

Bütün bu kimi yüksək, etibarlı şəraitin yaradılması bələdiyyə seçkilərində hər bir ölkə vətəndaşının rahat şəkildə iştirak etməyə imkan verir. Ancaq ortada olan bir həqiqət var ki, siyasi partiyalar arasında ən reytinqli və cəmiyyət arasında ən nüfuzlu siyasi partiya Yeni Azərbaycan Partiyası olduğundan, bələdiyyə seçkilərinin də qalibi YAP olacaq. Xalqın partiyası seçki hazırlıqlarını partiyanın tərtib etdiyi fəaliyyət planına uyğun olaraq aparır. YAP İdarə Heyətinin dekabrın 16-da keçirilən iclasında məlumat verilib ki, artıq partiya bələdiyyə seçkiləri ilə əlaqədar namizədlərini müəyyən edib. Qeyd edilib ki, seçkilərin keçiriləcəyi 685 bələdiyyə üzrə YAP-ın ümumilikdə 8071 nəfər namizədi müəyyən edilib. Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi dekabrın 10-dan başlayıb və dekabrın 30-u saat 18.00-dək davam edəcək. Nəzərə almaq lazımdır ki, 1999-cu il dekabrın 12-də Azərbaycanda ilk dəfə keçirilən bələdiyyə seçkilərində YAP böyük uğur əldə etdi və partiyadan 10 min 431 nəfər bələdiyyə üzvü seçildi. Sonrakı bələdiyyə seçkilərdində də YAP-ın qələbə seriyası dəyişmədi, əksinə bir qədər də genişləndi. Bu isə xalqın Ulu Öndər Heydər Əliyev siyasətinə və bu siyasəti böyük uğurla davam etdirən Fateh Sərkərdə, Prezident İlham Əliyevin daxili və xarici siyasətinə bağlı olduğunu göstərir. Əminliklə, həm də qətiyyətlə demək olar ki, YAP-a olan etimad və inam Azərbaycan dövləti durduqca dəyişməz olaraq qalacaq.

***İLHAM ƏLİYEV***

# "Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın"

## Prezident İlham Əliyevin "Rossiya Seqodnya"nın Baş direktoruna müsahibəsində səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir

***Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədə səsləndirdiyi fikirlər dünya mətbuatı tərəfindən geniş işıqlandırılıb.***

Rusiyanın TASS agentliyi Prezident İlham Əliyevin rəsmi Bakının Qarabağın bərpasında Rusiya şirkətlərinin iştirakını və Rusiyadan investisiyaların yatırılmasını alqışlaması barədə dediklərini oxucularına çatdırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti xarici investisiyalar üzrə birinci layihənin Rusiyaya məxsus olduğunu vurğulayıb.

"News.ru" nəşri Azərbaycan Liderinin Avropa İttifaqının xarici məsələlər üzrə nümayəndəsi Borrel barədə söylədiklərini önə çəkib. Bildirilib ki, Prezident İlham Əliyev COP-da çıxışlarının birində Borreldən sitat gətirərək, onun Avropanı çiçəklənən bağa, qalanlarını isə cəngəlliyə oxşatdığını deyib. Materialda, həmçinin dövlətimizin başçısının "Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib" fikirləri yer alıb.

"RBK" nəşri Prezident İlham Əliyevin Gürcüstanda son günlər baş verən hadisələrə münasibətindən yazıb. Qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Gürcüstanda baş verən iğtişaşlarda Fransa Prezidenti Emmanuel Makronun əli olduğunu, öz ölkəsində rahat durmadığı və Gürcüstana da əl atdığını vurğulayıb.

"Tatarstan-online" qəzeti isə dövlətimizin başçısının Qarabağın bərpasına ilk investisiya layihəsinin Tatarıstan tərəfindən həyata keçirilməsi barədə fikirlərinə diqqət çəkib. Qeyd olunub ki, Azərbaycan Prezidenti Cəbrayıl rayonunda "KamAZ" xidmət mərkəzinin açılışını xatırladıb. O vurğulayıb ki, bu, xarici investisiyalar üzrə birinci layihədir.

"İnterfaks" agentliyi Prezident İlham Əliyevin Ermənistandakı Avropa İttifaqı müşahidəçilərinin NATO missiyasına çevrilməsi barədə fikirlərini sitat gətirib. Bildirilir ki, Azərbaycan Lideri "Avropa müşahidəçiləri" pərdəsi altında Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradıldığını diqqətə çatdırıb. Bundan əlavə, agentlik Azərbaycan Prezidentinin Ermənistanın Fransa, Hindistan və ABŞ tərəfindən silahlandırılması məsələsinə də münasibət bildirdiyini yazıb.

"Qazeta.ru" nəşri qeyd edir ki, Prezident İlham Əliyevin rusiyalı həmkarının komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi, öz gücünə, qətiyyətinə inam diləyib. Rusiya cəmiyyətinin hər hansı bir cəmiyyət kimi ağır dövrdə birləşdiyini xatırladan Azərbaycan Lideri bu konsolidasiyanın gələcək də davam etməsini arzulayıb.

Türkiyənin Anadolu Agentliyinin, "Cumhuriyet" qəzetinin, "BengüTürk" telekanalının xəbərlərində vurğulanır ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyə ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində müttəfiqlik münasibətlərindən bəhs edərək, hər il ölkələrimizin 10-dan çox birgə təlim keçirdiyini, bunun Qafqazda sabitlik üçün mühüm amil olduğunu bildirib.

"HaberGlobal" telekanalının saytında yayımlanan yazıda dövlətimizin başçısının Ermənistanla sülh danışıqlarında razılaşdırılmayan iki bəndin qaldığını, bunların "tərəflərin bir-birinə qarşı beynəlxalq iddialar irəli sürməməsi" və "sərhədlərdə başqa dövlətlərin nümayəndələrinin yerləşdirməməsi" olduğunu bəyan etdiyi diqqətə çatdırılıb.

"Star" qəzeti isə Prezident İlham Əliyevin jurnalistin Türkiyənin Azərbaycanda hərbi bazasına ehtiyacın olub-olmaması ilə bağlı sualına cavabını dərc edib: "Müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni, bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir".

"Başka" qəzeti və "CUMHA" xəbər agentliyi isə dövlətimizin başçısının Fransanın və digər ölkələrin Ermənistanı silahlandırması ilə bağlı fikirlərini oxuculara çatdırıb. Qəzet dövlətimizin başçısına istinadla yazıb: "Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır və Azərbaycan üçün təhlükə yaradır. ...Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik".













Ardı Səh. 5

Əvvəli Səh. 4

# "Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın"

## Prezident İlham Əliyevin "Rossiya Seqodnya"nın Baş direktoruna müsahibəsində səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir

"Artı Gerçek" portalı isə bildirib ki, Azərbaycan Prezidenti ölkədə Türkiyənin hərbi bazasının yaradılması planı ilə bağlı yayılan xəbərləri "siyasi spekulyasiya" adlandırıb və belə bir bazanın yaradılmasına ehtiyacın olmadığını vurğulayıb.

"Gazete Kritik" nəşri isə dövlətimizin başçısının Rusiya ilə Qərb arasında davam edən qarşıdurmaya münasibət bildirdiyini yazıb. Prezident İlham Əliyevin bu fikirləri sitat gətirib: "NATO-nun və Rusiyanın üharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək".

Şimali Kipr Türk Respublikasının "Türk Ajansı Kipr" xəbər agentliyinin və "Kıbrıs Türk" qəzetinin informasiyalarında oxucuların diqqətinə çatdırılır ki, Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın Türkiyə ilə təhlükəsizlik sahəsində müttəfiqlik münasibətlərindən də danışıb. Türkiyə ilə hərbi əlaqələrin müstəqilliyimizin ilk günlərindən davam etdiyini, rəsmi Ankaranın Azərbaycan Ordusunun modernləşdirilməsində və yüksək standartlara çatmasında böyük rol oynadığını vurğulayıb.

Rumıniyanın qabaqcıl media orqanlarıda Prezident İlham Əliyevin müsahibəsindəki fikirləri geniş yayıb. "AGERPRES" milli xəbər agentliyi, "digi24.ro", "stireleprotv.ro", "adevarul.ro", "capital.ro", "financialintelligence.ro" portalları, "Prima Pagina", "Ziarul Amprenta" kimi qəzetlər və digər nəşrlər xəbərlərində Prezident İlham Əliyevin müsahibəsində Azərbaycandan Avropaya elektrik enerjisi nəql edəcək sualtı kabelin texniki-iqtisadi əsaslandırılmasının yaxın vaxtlarda tamamlanacağını bildirdiyini qeyd ediblər. "İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq", - deyə media resursları dövlətimizin başçısına istinadla vurğulayıblar.

Əlcəzairin "al24news" nəşri Prezident İlham Əliyevin müsahibəsində Fransanın Mayot və Yeni Kaledoniyanın qanunsuz işğalını kəskin tənqid etdiyini bildirib. Portal dövlətimizin başçısının Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanın qətlə yetirilməsini, 100-dən çoxunun yaralanmasını, 1000-dən artığının isə həbs olunmasını kəskin şəkildə pislədiyini və bunlara görə Fransa hökumətini günahlandırdığını qeyd edib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev bunun Makron diktaturasının nəticəsi olduğunu və Yeni Kaledoniyanı dəstəklədiyinə görə rəsmi Parisin Azərbaycanı ittiham etdiyini vurğulayıb.

"Euromedia24" portalı bildirir ki, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində Rusiya ilə NATO arasında qorxulu müharibə ssenarisinin baş verməməsi üçün müdrikliyin kifayət etdiyini diqqətə çatdırıb. Portal dövlətimizin başçısının bununla bağlı bu fikirlərini sitat gətirib: "Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin".

Bolqarıstanın "Zemya" xəbər portalında dərc olunan "Prezident İlham Əliyev ABŞ-dakı "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdı" sərlövhəli yazıda, eyni zamanda, "Fokus" xəbər agentliyi müsahibə ilə bağlı materialında dövlətimizin başçısının ABŞ-dakı "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdığını, bu addımın yeni müharibəyə səbəb ola biləcəyinə işarə etdiyi bildirib.










Qeyd olunub ki, Azərbaycan Prezidenti bununla bağlı bəyan edib: "...erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın".

Saytlar yazır ki, dövlət başçısı, həmçinin Azərbaycanın adekvat tədbirlər görməyə məcbur qaldığını, 2025-ci ildə hərbi büdcənin rekord məbləğ olacağını söyləyib.

Bu ölkənin "Faktı", "Classa" və "Net-News" Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə hərbi, strateji müttəfiqlik əlaqələrinə, habelə Rusiyanın azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə investisiya yatırması ilə bağlı fikirlərini oxucularına çatdırıb.

Yunanıstanın "EL" portalı isə yazıb ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyənin Azərbaycanda hərbi baza qurmasına ehtiyacın olmadığını bildirib. Azərbaycanın dövlət başçısı bununla bağlı yayılan xəbərləri "siyasi təxmin" olaraq qiymətləndirib. Vurğulayıb ki, Şuşa Bəyannaməsi iki ölkə arasında qarşılıqlı hərbi dəstəyi təmin edir

Portal, həmçinin Azərbaycan Prezidentinin NATO ilə Rusiya arasında müharibə ehtimalı ilə bağlı fikirlərini də yayımlayıb. Dövlətimizin başçısına istinadla qeyd olunub ki, Rusiya ilə NATO arasındakı gərginlik bir çox ölkələrdə narahatlıq doğurur. NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir.

Gürcüstan mediası da Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində yar alan fikirləri diqqət mərkəzində saxlayıb.

"Qafqazturk.com" dövlətimizin başçısının Azərbaycan-Gürcüstan münasibətlərinə dair bu fikirləri oxucularına çatdırıb: "Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Ona görə də orada vəziyyətin sabitliyinin pozulması hər iki ölkə üçün eyni dərəcədə zərərlidir". Xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti, həmçinin Fransa Prezidenti Emmanuel Makronun Gürcüstana da əl uzatdığını vurğulayıb.

"İnterpressnews.ge" portalı Prezident İlham Əliyevin Fransa Prezidenti Makronun Gürcüstana da əl uzatmasına münasibət bildirdiyini qeyd edərək yazıb: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır".

"Sputnik-georgia" isə dövlətimizin başçısının Türkiyə ilə əlaqələr, Azərbaycanda Türkiyənin hərbi bazası ilə bağlı suala cavabını oxucuların diqqətinə çatdırıb. Bildirilib ki, Azərbaycan Türkiyə ilə müstəqilliyini bərpa etdiyi ilk illərdən hərbi əməkdaşlıq edir və bu əməkdaşlıq davam edir.

"Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün". Dövlətimizin başçısının bu fikirləri isə "aktual.ge" portalında yayımlanan məqalədə dərc olunub.

"Aktual.ge" portalı, həmçinin "real-news.ge", "24news.ge" saytları Prezident İlham Əliyevin Azərbaycanın Gürcüstanla dostluq və tərəfdaşlıq münasibətlərinə, bu ölkədəki vəziyyətə dair fikirlərinə geniş yer ayırıb.

Qazaxıstanın "tengrinews" portalı yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Makronun Gürcüstandakı nümayişlərə müdaxilə etdiyini açıqlayıb. Dövlət başçısı bununla bağlı qeyd edib: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır". Sayt Prezidentin Gürcüstanda fəaliyyət göstərən və xaricdən maliyyələşən QHT-lərlə bağlı fikirlərinə də geniş yer ayırıb.

"Toppress" saytı isə Azərbaycan Prezidentinin USAID-ın fəaliyyətinə dair fikirlərinə toxunub. Sayt dövlətimizin başçısının bu fikirlərini təqdim edib: "Onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin".

"Ustinka" portalı isə qeyd edir ki, Prezident İlham Əliyev Azərbaycanın Rusiyadan Qarabağa investisiyaların qəbul edilməsinə hazır olduğunu vurğulayıb. Bildirib ki, ilk investisiya layihəsini Tatarıstan həyata keçirib. " Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq", - deyə dövlət başçısı əlavə edib.

Qeyd edək ki, müxtəlif ölkələrin informasiya resursları dövlətimizin başçısının müsahibədə müxtəlif mövzularla bağlı səsləndirdiyi fikirləri yaymaqda davam edir.

# Qədim tarixi yurdumuz - Qərbi Azərbaycan

Tarixi mənbələrə nəzər salarkən görürük ki, İrəvan xanlığının yarandığı ərazi ən qədim türk torpaqlarıdır və bu ərazidə qədim abidələrimizin mövcudluğu onun xalqımıza məxsusluğunu sübut edən amillərdəndir. Ermənilər Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışmışlar. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".



## Tarixi türk Qalalarımız, Məscidlərimiz

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları var idi. XIX əsrin sonları, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə - Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. mövcud idi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. Mənbələrdə qeyd olunur ki, İrəvanda məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

## BÖYÜK İRSİN NÜMUNƏLƏRİ

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Böyük bir irsin nümunələri bu yerlərdədir. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bir dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. 1924-cü ildə İrəvanın baş planı hazırlanaraq həyata keçirilməyə başlandıqdan sonra şəhərdə mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq baxımından əhəmiyyət kəsb edən bütün abidələri bir-birinin ardınca yox etdilər ki, gələcəkdə İrəvanı erməni şəhəri kimi təqdim edə bilsinlər. XX əsrin 30-40-cı illərində İrəvan şəhərinin mərkəzindəki azərbaycanlı məhəllələri mövcudluğunu qoruyub saxlayırdı.

Bu gün İrəvan şəhərində mövcud olmuş mülki memarlıq nümunələrindən ən diqqətçəkəni İrəvan qalasındakı Xan sarayı, yaxud Sərdar sarayına nəzər salacağıq. İstər Səfəvilər, istər Nadirşahlıq, istərsə də Qacarlar dövründə İrəvan hakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur. İrəvan qalasının və Xan sarayının Rusiya işğalından sonra çəkilmiş cizgilərinin bir qismi hazırda İrəvan şəhər tarix muzeyində saxlanılır. Saray qala kompleksinin şimal-qərb hissəsində yerləşmiş və qaladan saraya qapı açılırmış. İrəvan Xan sarayını 1843-cü il avqust ayının 27-də İrəvan qalasında olmuş alman səyyahı Avqust fon Haksthauzen də ətraflı təsvir etmişdir.

## "İRƏVAN QALASININ AÇARI"

Mənbələrdə qeyd olunur ki, fotoqraf D.Yermakovun XIX əsrin 80-ci illərində çəkdiyi İrəvan Xan sarayının bütün detallarını əhatə edən fotoşəkilləri hazırda Gürcüstan Dövlət Muzeyində D.Yermakova aid kolleksiyada saxlanılır. Köhnə İrəvana aid şəkillər içərisində İrəvan qalasının və Xan sarayının 1916-cı ildə çəkilmiş fotoşəkilləri mövcuddur. Görünür, Xan sarayının 1918-ci ildə yer üzündən silinməsi haqqında bəzi müəlliflərin yazdıqları həqiqətdir. Çünki 1918-ci ildə İrəvan quberniyası ərazisində erməni-daşnak hökuməti qurulmuş, azərbaycanlılara qarşı soyqırım həyata keçirilmişdi. İrəvan şəhərində azərbaycanlılara məxsus olan bir çox tarixi-memarlıq abidələri də məhz həmin dövrdə yer üzündən silinmişdir. Xan sarayı erməni vandalları tərəfindən Yer üzündən silinsə də, günümüzədək gəlib çatan məlumatlar, arxiv sənədləri, rəsm əsərləri, fotolar İrəvan Xan sarayı kompleksinin tam mənzərəsini yaratmağa imkan verir.

İrəvanda Xan sarayının üslubunda inşa edilmiş tarixi-memarlıq abidələrindən biri də Pənah xan Makinskinin evi idi. İrəvan şəhər Dumasının deputatı, kollej müşaviri Süleyman xanın oğlu Pənah xana məxsus yaşayış kompleksi onun adını daşıyan meydanda, Nalbandyan küçəsi-19 (keçmiş Ter-Qukasov küçəsi) ünvanında yerləşirdi. Kompleksə xanın ikimərtəbəli evi, mətbəx, anbar, ayrıca həyətlərdə nökərlər üçün birmərtəbəli ev və tövlələr daxil idi. Pənah xanın evi İrəvanda dövlət tərəfindən qorunan memarlıq abidələri siyahısına salınsa da, ötən əsrin 60-cı illərində onun da aqibəti azərbaycanlılara məxsus digər tarixi-memarlıq abidəsi kimi olmuş, dağıdılaraq yer üzündən silinmişdir.

Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesi 90-cı illərdən sonra geniş vüsət alıb. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var.

Mənbələrdə qeyd olunur ki, hazırda İrəvan şəhər tarix muzeyində müasir erməni memarları tərəfindən hazırlanmış İrəvan qalasının maketi nümayiş etdirilir. Maketdən görünür ki, heç də qalada mövcud olmuş bütün tikililər orada öz əksini tapmamışdır. Həmçinin həmin muzeydə qalanın ruslar tərəfindən işğalından sonra ələ keçirildiyi iddia edilən "İrəvan qalasının açarı" da nümayiş olunur.

Əlbəttə ki, göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb.

*Zümrüd BAYRAMOVA*

# Azərbaycan D-8 təşkilatının üzvü seçilib



Dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır. Ölkəmiz ilk dəfə Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə təmsil olunub. Qahirə şəhərində keçirilən XI Sammitdə ölkəmizi Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq. Bu çərçivədə, həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir.

Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın Katibliyi İstanbul şəhərində yerləşir.

# "Azərbaycan Atabəyləri" keçmişdən gələcəyə vizual avanqard

## *Tariximizin zəif kinosu - kinomuzun zəif tarixi*

***Son günlər incəsənəti aləmində baş verən önəmli hadisələrdən biri də "Azərbaycan Atabəyləri" filiminin premyerası oldu. Azərbaycan Televiziyası, "Şahdağ-film" və Türkiyənin "İkinciYeni Film" prodüser şirkətlərinin birgə istehsalı olan bu bədii-sənədli filmin ərsəyə gəlməsi milli kinematoqrafiyamızın salnaməsinə qızıl hərflərlə yazıldı və düşünürəm ki, bütün türk dünyasında böyük əks-səda yaradacaq.***

Ümumiyyətlə, Azərbaycanda tarixi kinonun ənənəsi güclü və zəngin deyil. İstər keçmiş Sovet dövründə, istərsə də müstəqillik əldə etdiyimiz gündən bəri hesablasaq, barmaqla sayılacaq tarixi filmlər çəkilib ki, bunların da əksəriyyəti bədii-estetik, dramaturji, ssenari, eləcə də, rejissor və aktyor işi baxımından uğursuzdur.

Ümumiyyətlə, erkən Orta Əsrlər Azərbaycan mədəniyyəti, yaşayış tərzi kinolarımızda demək olar ki, öz əksini tapmayıb.

Bu günə qədər Atabəylər dövləti milli kinematoqrafiyamızın diqqətindən kənarda qalıb. Lakin çox əhəmiyyətli olan və xüsusilə Səlcuqlar dövründə bu coğrafiyaya bu qədər tarixi şəxsiyyətlərin bəyaz pərdəyə çıxması baxımından "Azərbaycan Atabəyləri" filiminin kinematoqrafiyamızda mövcudiyyəti böyük önəm daşıyır.









Həmin dövrlə bağlı yeganə "Nizami" filmi çəkilib. O da Sovet ideologiyasının diqtəsi ilə Film barədə qısa məlumat kimi qeyd edək ki, adından göründüyü kimi, sözügedən filmdə 1136-1225-ci illərdə Azərbaycanı, Şərqi Anadolunu, Şimali İraqı, İranı və Cibəli idarə etmiş tarixi dövlət olan Atabəylər dövlətinin qurucusu Atabəy Şəmsəddin Eldəniz və Azərbaycanın ilk böyük atabəyi Qara Sunqurun həyatından bəhs olunur.

Filmin quruluşçu rejissoru Məcid Güvən, ssenari müəllifləri Sərvər Bayramov, İlqar Mehti, Səxavət Sahil və Ərcan Kayadır. Prodüserlər eyni ilə İlqar Mehti, Sərvər Bayramov və "İkinciYeniFilm"i təmsil edən Furkan Bəsli, quruluşçu rəssam isə Zəfər Malkoçdur.

Filmdə dünya şöhrətli döyüşçü Şəmsəddin "Eldəniz" rolunda dünya şöhrətli əlbəyaxa döyüş ustası Zabit Səmədov, "Qara Sunqur" rolunda İlqar Mehti çəkiliblər. Digər əsas rollarda isə "Xalq artisti" Mehriban Zəki (Möminə Xatun), "Əməkdar artist" Bəhruz Vaqifoğlu (Məhəmməd Cahan Pəhləvan), Jalə Həsənli (Zübeydə Xatun), Günay Əhməd (Laçın), Tural Əhməd (Arslan Şah), İlqar Musayev (Candar Çavlı), Səmimi Fərhad (Vəzir Əl-Xəzni), Samir Qulamov (Gəncər bəy), Salam İsmayılov (Şeyx İmad), Türkay Cəfərli (Şeyx İmadın köməkçisi), Rəşad Kəsəmənli (Sərkərdə), Hidayət Əliyev (Sultan Məsud) və digər sənətçilər yer alıblar.

Filmdə 100-dən çox aktyor epizodları canlandırıb, ümumilikdə isə heyətdə 500 nəfərdən çox insan çalışıb. Kadrarxası mətni "Xalq artisti" Fəxrəddin Manafov səsləndirib.

### Yeni tarixi faktlar

"Azərbaycan Atabəyləri" filmi tariximizə



də yeni faktlar gətirib. Bu, Şəmsəddin Eldənizlə Gəncə hakimi arasında əlaqədir. Süjet ayrı-ayrılıqda inkişaf etdirilsə də, filmdə vahid kontekstdə əks olunub. Filmdə emosional və məzmunca güclü, təsirli səhnələr, dialoqlar təkcə peşəkar akyor oyununun yox, eyni zamanda dəqiq seçilmiş planlar, rakurslar, montaj həlli, mənalı pauzalar, rəssam işi və s. sayəsində baş tutur.

Obrazların lakonik dialoqu, effektiv, dolğun portret planları, psixoloji mizanlar filmin mahiyyətini dəqiq xarakterizə edir. Ümumiyyətlə, kişi obrazların qəhrəmana, cəngavərə xas xarizması, duruşu, ikinci plandakı mükəmməl oyunları, çətin psixoloji vəziyyətlərdə sükutla, bədən diliylə təmkinli ifa, gözlərlə danışmaq, səsinin, intonasiyasını gücü, soyuqqanlı və emosional vurğuları doğru zamanlaya bilməsi, o cümlədən mükəmməl döyüş səhnələri filmin uğurunu təmin edir.

Məlumdur ki, tarixi filmləri yaddaqalan edən təkcə məzmunu deyil, həm də cəlbedici döyüş səhnələridir. "Azərbaycan Atabəyləri" filmində istər aktyorların geyimləri, özlərini əsl Orta Əsrlərdə yaşamış igidlər kimi göstərməsi, həyacanlı aksion səhnələri yaratmaq qabiliyyətləri və səs effektləri vacib kriteriyalar göz önünə gəlir.

Bu baxımdan filmdə aktyorların kameranın önündə obrazı yaşaması, bu rolları tamaşaçıların yaddaşına o dövrdən gəlmiş həqiqi qəhrəmanlar kimi həkk edir. Xüsusən, Qara Sunqur və Şəmsəddin Eldənizin önə çıxarılan keyfiyyətləri isə tarixdə oynadıqları rolla bənzərlik təşkil edir. Qara Sunqurun dövlətin təməllərini qoyan həm savaşçı, həm qurucu lider keyfiyyətləri, Eldənizin isə gələcəkdə Şəms-əd Din (dinin günəşi) titulu alması üçün dini və milli dəyərləri qılıncla qorumaq cəsarəti, obrazların tarixi şəxsiyyətlərlə tamamlanması kimi yadda qalır.

### Tariximizi evimizə gətirən film

Son zamanlar Azərbaycan efirlərində milli mentalitet, xüsusən ailə dəyərlərimizə böyük zərbə vuran verilişlərin çoxluq təşkil etməsi, sosial şəbəkələrdə insanların necə "insanlıqdan çıxması"nı demək olar ki, hamımız böyük təəssüf hissi ilə müşahidə edirik. Filmi seyr etdikcə adam həqiqətən o illərə, ailə dəyərlərinin möhkəm olduğu zamana getmək istəyir. Çünki bu film zəmanəmizin insanını o dövrə aparmaqla yanaşı, bu günki dəyərlərimiz arasında birbaşa bağın mövcud olmasına inandırır.

Bugünkü ictimai-siyasi reallıqlar fonunda kinematoqrafçılarımızın yaratdığı bu cür dəyərli kino əsərləri milli-mənəvi dəyərlərimizin təbliğində və yetişməkdə olan gənc neslin təlim-tərbiyəsində əhəmiyyəti çox böyükdür. Çünki tarixdə Azərbaycan ilk dəfə Atabəylər dövründə bütövləşib.

Bu mənada filmin ideyası və hədəfi tarixi yaddaşımızın təzələsə də, bu yaddaş üzərində həm də gələcəyimiz qurulacaq. Xüsusi təmkinliklə hadisələrə izahat verilməsi, o dövr barədə əhatəli təsəvvür yaratmaq üçün olduqca vacibdir.

Filmdə diqqəti cəlb edən məsələlərdən biri də Zəngəzur yolu ilə karvanların işləməsini əks etdirən epizodlardır ki, onlar tarixi həqiqət olmaqla yanaşı bu günümüzə verilən ismarıclardır.

Son illər dünya kinematoqrafiyasında tarixi mövzularda çoxlu uğurlu filmlər ərsəyə gətirlib. Xüsusən, qardaş Türkiyədə bu janrda çəkilən filmlərə tamaşa etdikcə içimdə bir həzin qibtə hissi yaranırdı. Ona görə də, tariximizi özündə əks etdirən, yeni dövrdə yeni ənənələrə söykənən filmlərimizin meydana çıxmasını səbirsizliklə gözləyirdim. Baxmayaraq ki, bunun o qədər də asan məsələ olmadığı bir həqiqətdir. Amma əsas ilk addımı atmaq idi. "Azərbaycan Atabəyləri" filmini izlədikdən sonra əmin oldum ki, nəhayət bu istiqamətdə uğurlu bir addım atmağı bacardıq. Bu baxımdan, "Azərbaycan Atabəyləri" olduqca böyük nailiyyətdir. Ona görə də, başda Azərbaycan Televiziyası olmaqla filmin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkür edirəm.

***İltifat HACIXANOĞLU***

# “Təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir”

# BƏYANAT

***ABŞ-ın Azərbaycandakı səfirliyinin ölkəmizin daxili işlərinə qarışan və böhtan dolu bəyanatını sərt şəkildə qınayırıq. Azərbaycana qarşı şər kampaniyasını ölkəmizdə guya söz azadlığı sahəsində olan problemlərin olması ilə izah etməyə cəhd edən ABŞ səfirliyinin diqqətinə çatdırmaq istərdik ki, bu təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir.***

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında qeyd olunub.

Bəyanatda deyilir: ”ABŞ-ın hazırkı administrasiyası azərbaycanlılara qarşı etnik və dini əsaslarla ayrı-seçkilik siyasəti aparmaqla, ölkələrin ərazi bütövlüyü və suverenliyinə selektiv yanaşmaqla, Ermənistanın deportasiya, etnik təmizləmə, təcavüz və işğal siyasətinə dəstək verməklə insan hüquqlarından danışmaq haqqını itirmişdir. Biz Qərbi Azərbaycan İcması olaraq bu ədalətsiz yanaşmanı, ayrı-seçkiliyi daim hiss edirik.

Bundan əlavə, ABŞ səfirliyinin özlərinə gəldikdə nəinki azacıq tənqidə, hətta adi suala belə aqressiv ritorika ilə cavab verməsi onların yeri gəldi-gəlmədi pafosla danışdıqları ”söz azadlığı”na, ”fikir müxtəlifliyi”nə olan namərdliyini göstərir. Biz ABŞ-ın hazırkı administrasiyasından ölkəmizin daxili işlərinə müdaxiləsinə, xalqımıza qarşı ayrı-seçkiliyinə və insan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadəsinə son verməyi tələb edirik”.

# Bakının Cənub girişi: bərbad vəziyyəti düzəltmək üçün nə etməli?

## Bu baxımsız ərazi paytaxtımız haqda ilkin təəssüratların müsbət olmasına mane olur və şəhərimizin gözəlliyinə xələl gətirir





Yeni Salyan Şossesi. Paytaxtın cənub girişi, yeni şəhərin mərkəzinə birbaşa əsas giriş yolu. Bakının Cənub girişi günü-gündən müasirləşən, abadlaşan paytaxtımızla müqayisədə çox geridə qalıb. Bibiheybət məscidindən Su İdmanı Sarayınadək uzanan təxminən 2 kilometr məsafədə boz çöllər, ötən əsrin 30-40-cı illərindən qalma istifadəyə yararsız, hələ də sökülməyən mənasız tikililər, artıq heç nəyə yaramayan köhnə neft buruqları, neft gölməçələri insanı məyus edir. Təəssüflə deməliyik ki, neftlə çirklənmiş bu ərazi Bakının 20-ci əsrin əvvəllərindəki miskin mənzərəsini xatırladır. Şəhərimizə gələn qonaqların ilk gördüyü mənzərə və paytaxtımızla bağlı ilk təəssüratları da, buradan başlayır (fotolara bax).

Məsələ yalnız görüntüdə də deyil. Xüsusilə yay aylarında neft buruqlarının ətrafındakı gölməçələrindən buxarlanan kəskin qoxulu qaz şəhərin ekologiyası və ətrafda yaşayan sakinlərin sağlamlığı üçün ciddi təhlükə mənbəyidir. Bundan başqa ərazidə qaz ixrac zavodu adlı müəssisə də var ki, gecələr onun buraxdığı qazın iyindən nəfəs almaq olmur. Bu xoşagəlməz qoxunu həmin sahədə inşa edilmiş jurnalist binalarının sakinləri də mənzillərində hiss edirlər. Bəzi məlumatlara görə, ərazidə zəif miqyaslı radiaktiv fon da mövcuddur. Küləkli havalarda ətraf toz-dumana bürünür, necə deyərlər, göz-gözü görmür. Baxımsız, qumsal ərazidən qalxan toz-torpaq şosse yolunu görünməz edir və ətrafdakı binaların mənzillərinə dolur.

Maraqlıdır, ərazidəki cinayətkarlıq mənbəyi olan tamamilə köhnə, uçuq, istifadəsiz tikililər kimə lazımdır? Qaranlıq vaxtı belə istifadəsiz və yararsız binalara narkomanların yığışdığı haqda da xəbərlər yayılır. Şübhəsiz ki, ərazi abadlaşdırılsa, burada yaşıllıq və park salınsa, mövcud problemlər də aradan qalxar.

Nəzərə almaq lazımdır ki, müxtəlif beynəlxalq tədbirlər və idman yarışları zamanı turist qismində respublikamıza gəlmiş qonaqların əksəriyyəti şəhərə bu yolla daxil olurlar. Gördüyünüz fotonu Bakıda beynəlxalq velosiped yarışları keçirilərkən lentə almışdım. Yüzlərlə əcnəbi velosipedçi bu dəhşətli mənzərələri seyr edə-edə yarışırdı. Üstəlik, bu kadrlar yarışı işıqlandıran xarici mediada da dərc olundu.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqları əsasında Bakıda aparılan genişmiqyaslı abadlıq, quruculuq və yaşıllaşdırma işləri fonunda paytaxtın əsas girişindəki acınacaqlı mənzərə xoşagəlməz təəssürat yaradır. Bəs, görəsən ARDNŞ-nin Ekologiya İdarəsi, BŞİH-in Yaşıllaşdırma İdarəsi, Ekologiya və Təbii Sərbətlər Nazirliyi bu acınacaqlı vəziyyətlə bağlı nə düşünür? Bu boş və çirkablı ərazidə səliqə-sahman yaratmaq, yararsız tikililəri sökdürmək, ağaclar əkmək dünya miqyaslı və nüfuzlu bir şirkətə çox çətindirmi?

Görünən odur ki, bilavasitə ARDNŞ üçün kadrlar hazırlayan Ali Neft Məktəbinin kampusunun da yerləşdiyi bu ərazi tamamilə ”unudulub”. Axı burada gələcəyin neftçiləri də təhsil alırlar, heç olmasa, onların səhhətini düşünmək lazımdır. Düzdür, son illər bu ərazinin bir hissəsində ağaclar əkilib, qismən yaşıllıq salınıb. COP-29-dan əvvəl isə, yalnız şosse yolunun kənarı boyunca 1-2 cərgə sıx tinglər əkildi ki, qonaqlar o tərəfi görə bilməsin, amma yenə də bu biabırçı mənzərə açıq-aşkar görünür. Ərazinin bərbad mənzərəsi fonunda bu işlər o qədər də nəzərə çarpmır. Neft buruqlarının xeyli hissəsi fəaliyyətini dayandırıb. Əlbəttə, neft ehtiyatlarına malik buruqların ətrafını abadlaşdırmaq, buranı açıq neft muzeyinə çevirmək, ərazidə idman meydançaları və parklar salmaq olar.

Son vaxtlar bu ərazinin yaxınlığınadək ciddi işlər görülüb-dənizkənarı bulvar Su İdmanı Sarayınadək uzadılıb, ərazi abadlaşdırılıb, yaşıllıq salınıb. Lakin Su İdmanı Sarayından Bibiheybət məscidinədək olan dənizkənarı və yolkənarı ərazi, fotolardan da göründüyü kimi, bərbad vəziyyətdədir. Bakı Şəhər İcra Hakimiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Nazirliyi, ARDNŞ bu ərazini abadlaşdıra, yaşıllaşdıra bilər.

Nəzərə almaq lazımdır ki, bu gün dünyada yaşıl sahələrin ən az olduğu şəhərlərdən olan Bakıda yaşıllıq sahələrinin həcminin artırılmasına da böyük ehtiyac var. Ümid edirik ki, yaşıllaşdırma və abadlaşdırma işlərinin mühüm bir qismi də paytaxtımızın cənub girişini əhatə edəcək, müasir şəhərimizin gözəlliyini pozan, ekoloji böhran məkanı olan bu ərazi yaşıllığa çevriləcək.

Paytaxt mərkəzinə ən yaxın ərazi kimi şəhər Cənub istiqamətində inkişaf edir, burada yeni binalar, infrastruktur obyektləri inşa edilir. Dənizkənarı zolağı, eləcə də tarixi ”İpək Yolu”nun başlanğıcı olan bu magistral yolun ətrafını abadlaşdırıb yaşıllaşdırsaq, ölkəmiz, paytaxtımız, insanlarımız üçün gözəl bir iş görmüş olarıq.

***Elçin Bayramlı,***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***



**Lalə Mehralı**

# Möcüzə deyil, bəs nədir?

***Ana südünün dadını bilirsinizmi? Kəmşirindir, ananın yediyi qidalara görə bəzən dadını və rəngini dəyişə bilir, amma normalda azacıq şirindir. Körpənin oğlan və ya qız olmasından asılı olaraq ana südünün tərkibi dəyişə bilir. Yaradanın qüdrətinə bax ki, eyni anda bir süd vəzisindən oğlan uşağı, bir süd vəzisindən qız uşağı əmərsə hər uşağa görə ayrı tərkibdə süd istehsal edir orqanizm.***

Ana südü körpənin inkişafına görə özü-özünü tənzimləyir, yəni süd şüurlu şəkildə tərkibini dəyişə bilir. İnsan ömrünün heç bir dövründə heç bir qida tək qida mənbəyi ola bilməz, yalnız ana südündən başqa. Gündüz və gecə ana südü öz tərkibini dəyişdirir, gecələr körpənin daha rahat həzm edə bilməsi üçün daha yüngül tərkibdə süd ifraz edilir, gündüzlər isə daha zəngin olur. Ana südünün yağlılığı ən çox səhərlər yüksək olur.

Yarımçıq doğulan körpələrin anasının südü vaxtında doğulan körpələrin anasının südündən 20 faiz daha qüvvətli olur. Möcüzəyə baxın, körpənin normadan zəif olduğunu ana orqanizmi anlayır və daha qüvvətli süd istehsal edir. Ana südünün tərkibi hər həftə dəyişir, körpənin böyüdükcə hər həftə fərqli mineral və vitaminə ehtiyacı olur çünki. Sizcə də heyrətamiz deyilmi?

Amma bütün bu qüdrətə sahib olan və südünü sağıb tualetə tökən qadınlar var...

Bütün dünyada ana südü ilə qidalanma nisbətini artırmaq üçün müxtəlif tədbirlər görürlər, mexanizmlər işləyirlər, təşviqedici proqramlar tətbiq edirlər. Anlarla hamiləlik boyunca maarifləndirmə işi aparırlar, həkimlər, əmzirmə mütəxəssisləri məsləhətlərini verir. Bu tədbirlərin sayəsində analar ada südünün əhəmiyyətini anlayır, əmzirmənin faydasını bilir.

Ana südü ilə qidalandırma faizinin ölkəmizdə 50 ətrafında olduğu iddia edilir, lakin müşahidə və təcrübələr göstərir ki, real rəqəm daha azdır, amma 10 il əvvəlki 23-25 faizlik göstəricilərə nisbətdə ”buna da şükür” deyə bilərik. Əgər bu problem sizə çox xırda görünürsə, demək ki, süni uşaq qidalarının təhlükəsi barədə hələ çox məlumatlı deyilsiniz.

Dünyada hər il 1 milyondan çox uşaq ana südü ilə qidalanmadığı üçün vəfat edir. Onların ölümünə səbəb olan ishal, nəfəs yolu xəstəlikləri, bir çox infeksiya ana südü əmən uşaqlarda rastlanmır. Həmçinin, ana südü əmən uşaqlarda ”miningit”, qulaq infeksiyaları, revmatizm, əsəb problemi, immun çatışmazlığı da olmur, orta qulaın iltihabını belə ana südü sağalda bilir. Bundan əlavə döş əmən uşaqlar çox az xərçəng xəstəliyinə tutulma riski daşıyırlar, onlar yaşıdlarına nisbətdə daha az diabetə yoluxurlar.

Ana südü hər körpənin haqqıdır, onu bu nemətdən məhrum etməyə heç bir ananın haqqı yoxdur. ”Südüm yoxdur”, ”süd vəzim korlanır”, ”işləyirəm” kimi iddialara, bəhanələrə sığınmayın. Hamiləlikdə sağlam qidalanın ki, övladınızın təməl qidası bol olsun, onu yalnız biznes maraqları güdən işbazlardan, süni qidalarla gefondumuzu dağıtmağı qarşısına məqsəd qoyan böyük güclərin təsirindən qoruyasınız. Hər yeri zəbt etmiş süni qidalarının reklamlarındakı ”biz sizin övladınızı düşünərək ən yaxşı qidanı hazırladıq” kimi cümlələrə aldanmayın. Unutmayın ki, heç kim sizin övladınızı sizin qədər düşünə bilməz.

İnsanın ən vacib və təməl qidası ana südü üzərində həyasızcasına alver quran, yenidoğulmuşları ana südünə həsrət qoyub ”smes” bazarını çiçəkləndirən, ”südündə mikrob var” deyib qadının həyatının ən həssas dönəmini kabusa çevirən ”həkimlər”, sizin bəlanızı isə bizi yaradan verəcək. Mütləq verəcək!

# Terrorizmin dəhşətləri




Terrorizm insanlığa qarşı yönəldilmiş bəladır və minlərlə insan terrorçuların törətdikləri əməllərin acı nəticələrini yaşamışdırlar. İnsan tələfatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Əlbəttə ki, terrorçunun milliyyəti və sərhədi yoxdur. Azərbaycan da terrordan əziyyət çəkən dövlətlər sırasındadır. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər. Zaman-zaman Azərbaycana qarşı ermənilər tərəfindən terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq. Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Dili hibrit, yəni calaq dili, ərazisi, mədəniyyəti, mətbəxi, tarixi olmayan ermənilər tarixi, irsi, mədəniyyəti ilə dünyanın marağında olan bir dövlətlə Azərbaycanla qonşudurlar. Müasir dünyamız 200 il ilə müqayisədə ciddi şəkildə dəyişmiş olsa da təssüflər olsun ki, erməni siması dəyişməyib. Ermənilərin hər bir hərəkəti, ümumilikdə siyasəti məkrlidir. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların tarixi kimliyinə söykənir. Vətən müharibəsinə qədər, eləcə də, həmin zamanda erməni terroçuların törətdikləri əməllər dünyanın gözü qarşısında baş verib. Yaxın tarixi keçmişimizə nəzər salaq. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi. Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də ”Şuşa-Bakı” marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə ”Noraşen-Bakı” yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur.

## QARABAĞ MÜNAQİŞƏSİNİN İLK QURBANLARI

Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xisləti əməllərdir ki, xalqımız bunu yaşayıb. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu, bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki, 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, gülləyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən ”PAZ-3205” dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Vurğulamaq yerinə düşər ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də ”Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” dekret verib və həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunub. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə ”Stepanakert” adlandırılıb. Bu, erməni özbaşınalığı, erməni saxtakarlığıdır. Tarixi ədalət hər zaman bərpa olunur. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki, ”Xankəndi” adı bərpa edilib.

## TARİXİN SƏHİFƏLƏRİ

1992-ci il yanvarın 28-də daha bir terroru yaşamış olduq. Ağdamdan Şuşaya uçan ”Mİ-8” mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Xatırladaq ki, hadisədən iki ay əvvəl - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında ”Mİ-8” helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər həlak olmuşdular. Həlak olanların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdur.

Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir.

## FAŞİST İDEOLOGİYASININ SAHİBİ

Ermənistanın Azərbaycana hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edirdi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır.

Terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir.

Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.

Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qaldığı yaşayış məntəqələrindən biri də Bərdə şəhəridir. Bərdə şəhəri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb. 2020-ci il oktyabrın 5-də Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən 2 nəfər həlak olub, 6 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Ümumilikdə isə Bərdə şəhərində törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb.

44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib. Bütün bunlara baxmayaraq Azərbaycan xaqqı 44 günlük müharibədə Zəfər qazandı. Ermənilərin dağıtdığı viran qoyduğu ərazilərimizdə bu gün böyük abadlıq-quruculuq işləri aparılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənclərin vətənpərvərlik tərbiyəsi

***Müasir qloballaşma dövründə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət, onun müvafiq orqanları, təşkilatlar və hər bir Azərbaycan vətəndaşı qarşısında böyük məsuliyyət yaradır. Bəzən vətənpərvərliyi millətçilik hisslərinə yaxın bir anlayış kimi qəbul edirlər. Əslində isə, vətənpərvərlik heç vaxt millətçiliyi təbliğ edən bir anlayış olmayıb.***

XIX əsrdə vətənpərvərlik anlayışı millətçiliklə eyni mənada işlənmişdir. XVIII əsr vətənpərvərliyi Avropada dövlətlə yanaşı kilsəyə bağlılığı bildirən amil kimi qəbul edilmişdi. Kilsə adamları əsasən vətənpərvərliyi dini mənsubiyyətlə bağlayırdılar. Bununla isə onlar insanların dövlətə olan bağlılığını qoparmağa çalışırdılar.Azərbaycanda XX əsrin sonlarında -SSRİ-nin parçalanmasından sonra Azərbaycan dövlətinin müasirləşməsi ilə vətənpərvərlik müxtəlif cərəyanların içərisində özünü göstərdi. Orta əsrlərdə Azərbaycan ziyalılarının yaradıcılığında da vətənpərvərlik hislərinin tərənnümünü tapmaq mümkündür. Beləliklə, bu anlayış millətçi zəmində qarşıdurma yaradan amil kimi yox, xalqın, dövlətin milli maraqlarının müdafiəsi yönündə birləşməsini təmin edən bir sistem kimi özünü göstərir.

Vətənpərvərlik - vətəni sevmək və vətən üçün hər cür fədakarlığı etmək hissidir. Tarixin bütün dönəmində Azərbaycan ərazisində ilkin dövlətlərin yaranmasından bu günə qədər bu ənənə yaşayır.

Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş dövlətçilik durur. Azərbaycan xalqının yaxın və uzaq keçmişi, elm, mədəniyyət, dövlətçilik, siyasət sahəsində əldə etdiyi nailiyyətləri, qəhramanlıq tarixi, dövlətin müasir inkişaf göstəriciləri gənclərdə vətənpərvərliyi formalaşdıran əsas amillərdir. Hər bir dövlətin varlığı və gələcəyi, həm də gənclərin tərbiyəsindən asılıdır. Gənclərin ideoloji baxımdan hazırlığı, düşünülmüş ardıcıl gənclər siyasətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyev tərəfindən 2002- ci il mayın 6-da imzalanmış ”Gənclər siyasəti haqqında” qanunda deyilir ki, bu siyasət gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, mənəvi ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə birbaşa bağlıdır. Bu qanundan göründüyü kimi, milli vətənpərvərliyin məzmunu təkcə öz vətəninə məhəbbət hissi ilə məhdudlaşmayıb, milli ruhda tərbiyəni təşkil edir. Azərbaycan xalqı daim gənc nəslin vətənə sədaqət, xalqa hörmət, soykökünə, öz ata-babalarının adət-ənənələrinə bağlılıq ruhunda tərbiyə olunmasına xüsusi diqqət göstərib və göstərir. Gənclərə aparılan vətənpərvərlik tərbiyəsi işinin mühüm istiqamətlərdən biri də ayrı-ayrı şəxsiyyətlərin, milli qəhrəmanların şəxsi nümunələrindən istifadədir. Böyük pedaqoqlar tərbiyədə şəxsi nümunənin rolunu hər zaman yüksək qiymətləndirmişlər. Tariximizdə, eləcə də müasir dövrümüzdə həyatı gənclərə vətənpərvərlik nümunəsi olan şəxsiyyətlər çoxdur. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin zəngin, mənalı, xalqına və vətəninə həsr olunmuş həyat yolu gənclərimiz üçün bir örnəkdir. Ulu Öndərin zəngin siyasi irsinin öyrənilməsi istiqamətində son dövrlərdə Elm və Təhsil Nazirliyi tərəfindən atılan addımlar çox dəyərlidir və gənclərimizin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

”Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”. Bu sözləri Azərbaycan Gəncləri Gününə həsr olunmuş Respublika



toplantısında Prezident İlham Əliyev söyləyib. Bu da onun gəncliyə verdiyi dəyərin bariz nümunələrindən biridir.

Dövlət başçısının söylədiyi fikirlər həqiqətən də gənclər adına çox qürurvericidir. Bu gün qürur hissi ilə demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, gözəl adət-ənənələrimizi qoruyub yaşadır.Bunlardan əlavə, 2022-ci il Fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu Forumda iştirak etdi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı, məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

Gülüstan sarayında təşkil olunan Gənclər Forumunda gənc sahibkarlar, dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün, şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial inklüziv fəaliyyətdə fərqlənənlər iştirak etdilər. Həmçinin, dövlətimizin başçısı Forumda çıxış etdi. Cənab Prezident forumda gənclərin vətənpərvərliyi haqqında bu fikirləri diqqətə çatdırdı: ”Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı, müharibənin nəticələri necə ola bilərdi.

Əlbəttə, müharibədə əldə edilmiş qələbənin bir çox səbəbləri var: həm ölkədaxili səbəblər, həm də bizim xarici müstəvidəki fəaliyyətimiz, əlbəttə ki, güclü iqtisadiyyatımız, ordumuzun müasirləşdirilməsi. Ancaq əsas amil vətənpərvərlikdir. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz”.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq edilmiş və aidiyyatı nazirlik, komitə və təşkilatlarla razılaşdırılmış ”Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi” Proqramı təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 fevral tarixli 28 saylı sərəncamı ilə təsdiq edilmişdir. Proqramda nəzərdə tutulur ki, müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və vətənin azadlığı uğurunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Proqramın əsas məqsədi gənclərdə vətənə dərin məhəbbət, vətənin tərəqqisi üçün çalışmaq, onu müdafiə etmək hissləri aşılamaqdır.

Cəmiyyəti inkişaf etdirən, irəli aparan vətəndaşlar məktəblərimizdə tərbiyə alır və formalaşır. Danılmaz faktdır ki, məktəblərimizdə təbliğ edilən vətənpərvərlik ideyaları gənclərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzli- lik kimi ən ülvi hissləri aşılayır. Məktəbdə müəllimin vəzifəsi təkcə bilik verməklə məhdudlaşmır, bu, eləcə də vətənə layiqli şəxsiyyət yetişdirməkdir.

Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar var. Çünki Azərbaycanı dünyaya tanıdan dövlət xadimlərinin, ziyalılarının nümunələri də gənc nəsl üçün bir tərbiyə məktəbidir. Bu bir həqiqətdir ki, biz şanlı tariximizdə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Şah İsmayıl Xətai, Babək, Mehdi Hüseyinzadə, Həzi Aslanov və yüzlərlə belə igid sərkərdələrimizin şəxsi nümunəsi əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır və bu xalq minlərlə qəhrəman,vətənpərvər yetişdirib.

İnsanın ən ali hissi olan vətənpərvərlik anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir. Yeniyetmə və gənclərimizin bu ruhda tərbiyəsi həmişə təlim-tərbiyə işinin, istər ailədə, istərsə də təhsil ocaqlarında ən mühüm istiqamətlərdən biri olmuş və olmalıdır.

Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hisslərini yüksək qiymətləndirərək demişdir: ”Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq,inkişaf etdirmək və təbliğ etməkdir”.

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi təhsildə prioritet tələbdir və bu şəkildə də müəyyənləşdirilməlidir. Azərbaycanın 5 min ilə yaxın dövlətçilik tarixində Qarabağ müharibəsi çox əhəmiyyətli və xüsusi yer tutur. 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində xüsusi bir hadisədir. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusu itirdiyimiz torpaqları özümüzə qaytardı. Burada Azərbaycan igidləri yalnız silah və texnika gücü ilə deyil,eyni zamanda, şəxsi şücaətləri ilə yadda qaldı. Qəlbi vətən eşqi ilə yanan mərd oğullarımız şanlı tariximizə öz qanları ilə yeni qələbə yazdılar.

Gənclərimizdə vənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə, bütöv bir xalqın gələcəyini təmin edən amillərdəndir. Şübhəsiz ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir.

Onu da qeyd etmək istəyirəm ki, vətənpərvərlik tərbiyəsi təkcə tərbiyə və təhsil müəssisələrində aparılmır. Vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu vardır. Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kör-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar.

Son dövrlərdə gənclərimizin vətənpərvərlik tərbiyəsinə diqqət daha da artırılmışdır. Təhsil müəssisələrinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması üçün müəyyən vəzifələr qoyulmuşdur. Bu məqsədə çatmaq üçün məktəb və ailə uşaqlarda vətənə, xalqa məhəbbət hissi tərbiyə etməklə yanaşı, onlarda vətən qarşısında şərəf və borc hissini də qüvvətləndirilməlidir.

Fəaliyyət göstərdiyim qocaman təhsil müəssisəsində - Azərbaycan Dövlət Pedoqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində də gəncələrin vətənpərvər ruhda böyüməsi, təhsil alması həmişə diqqət mərkəzində olmuşdur. Gənclərin vətənpərvər ruhda böyüməsi, təhsil alması üçün müxtəlif mədəni - kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri aparılır. Bu isə yetişməkdə olan gənc nəslin mənəvi, psixoloji hazırlığının təmin edilməsinə kömək edir. Eyni zamanda, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də milli-mənəvi dəyərlərimizin qorunub saxlanmasına kömək edir.

***Aidə Musayeva***
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi***

# Dünyada olan maraqlı Yeni il ənənələri

***Yeni il ənənələri ölkədən-ölkəyə dəyişir. İnanclar, rənglər və adət-ənənələr fərqlidir, amma məqsəd birdir: Yeni ilin xoşbəxtlik və şans gətirməsi. Hamımız yeni ilə yeni ümidlər, gözləntilər, arzular, qərarlar və hədəflərlə giririk. Ən maraqlı Yeni il ənənələri də bu inanclara uyğun formalaşır. Bəs, Yeni il gecəsinin mənası nədir? Müxtəlif mədəniyyətlərdə Yeni il adət-ənənələri hansılardır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb. Yeni il gecəsinin mənası nədir?

Yeni il gecəsi Qriqorian təqviminə görə hər yeni ilin birinci günü, yanvarın 1-də qeyd olunur. Yerin Günəş ətrafında bir dövrə tamamladığını ifadə edən Yeni il gecəsi illik təqvimi izləyən mədəniyyətlərə aid bir anlayışdır. Yeni il bayramı müxtəlif mədəniyyətlərə və inanclara görə dəyişə bilsə də, bütün dünyada dekabrın son gününü yanvarın birinci gününə bağlayan gecə kimi qeyd olunur.

Xristianlıqda Yeni il gecəsi İsanın doğulduğu günə aid olan Milad bayramından fərqlidir. Ağacların bəzədilməsi, hədiyyələrin verilməsi əslində Milad deməkdir və bu bayram hər dekabrın 25-dən başlayaraq 1 həftə qeyd olunur. Milad ağacları daha çox Avropa və ABŞ-da birləşdirilən Milad bayramı və Yeni il gecəsi ilə bütün dünyaya yayılıb və bu, ən çox tanınan ənənədir. Yeni ilin əvvəlində ağacların bəzədilməsi ənənəsinin qədim dövrlərə gedib çıxdığı təxmin edilir.

Bir çox əyləncə mərkəzləri ilin son günü üçün Yeni il ərəfəsi proqramları təşkil edir. Turizm obyektlərində də xüsusi Yeni il proqramları var. Bir sözlə, Yeni il gecəsi hamının qeyd etdiyi bir hadisədir.

## Müxtəlif mədəniyyətlərin Yeni il ənənələri

Yeni il bayramı mədəniyyətdən mədəniyyətə dəyişə bilər. Buna səbəb olan əsas şeylər mədəniyyətlərin coğrafi mövqeyi və inanc sistemlərindən gələn ənənələrdir.

**Yəhudilər Yeni il gecəsini Roş-Ha-Şana adlandırırlar.**

İbrani təqviminə görə, Tişri ayının birinci və ikinci günü Yeni il gecəsi kimi qeyd olunur. İbrani təqvimi, hicri təqvimi kimi, aylara görə təşkil edildiyindən, Roş-Ha-Şana tarixi Miladi təqvimlə daim dəyişir.





**Çin mədəniyyətinin də öz təqvim sistemi var.**

Çin təqvimi 60 illik dövrlərdən ibarətdir və hər 5 ildən bir heyvanla əlaqələndirilir. Çin Yeni ili də Qriqorian təqvimindəki ildən asılı olaraq dəyişir. Çinlilər Yeni il gecəsini "Nian" adlandırdıqları canavarı simvolizə edən qırmızı rəngə boyanmış əşyaları yandıraraq qeyd edirlər. Beləliklə, onlar Niandan xilas olurlar. Onlar da borclarını ödəyib evlərinə kağızdan bəzək hazırlayırlar.

Novruz bir çox Yaxın Şərq mədəniyyətində, xüsusən də İranda Yeni il gecəsi kimi qeyd olunan başqa bir gündür. 12 heyvandan ibarət türk təqviminə və Cəlalı təqviminə görə Yeni il bayramı miladi təqvimlə 21 martda qeyd olunan günə aiddir. Martın 21-i həm də gecə-gündüz bərabərliyi tarixidir və hetlər bu günü Yeni il gecəsi seçiblər.

## Qədim mədəniyyətlərdən yeni il ənənələri

Mayyaların 360 gündən ibarət təqvimi var idi və onların təqvimlərinə görə Yeni il gecəsi iyun ayının bir gününə düşür. Mayyalılar bu ay ərzində bir çox möhtəşəm dini mərasimlər keçirirdilər, lakin Yeni il ritualı sadəcə olaraq ailəvi şəkildə qeyd olunurdu

Qədim misirlilər bir çox şeylərdə olduğu kimi Yeni il gecəsini də Nil çayı ilə əlaqələndirirdilər. Nə vaxt Nil çayı daşıb düzənlikləri suvarsa, həmin gün onlar üçün Yeni il gecəsi demək idi. Bu adətən iyul ayına təsadüf edirdi. Misirlilər Yeni il ərəfəsində böyük şənliklər təşkil edir və camaat kimi toplaşırdılar.

Babillilər gecə-gündüz bərabərliyi dövründə Yeni il gecəsini qeyd edən qədim mədəniyyətlərdəndir. Babillilər bu günə Akitu adını verdilər və hər Akituda mühüm məbədlərin ətrafına toplaşaraq yeni ilin məhsuldar keçməsi üçün dua edərdilər. Akitu həm də padşahın keşiş tərəfindən alçaldıldığı gündür. Əgər padşahı keşiş ağlada bilərsə, bu, ilin məhsuldar olacağı deməkdir.

## Dünyanın müxtəlif yerlərindən gələn qəribə Yeni il ənənələri

Dünyada çoxlu mədəniyyətlər və hər mədəniyyətin fərqli ənənələri var.

**Çin**

Çinlilər ilin ilk günündə xoşbəxtlik və uğurlar gətirmək üçün ön qapılarını qırmızı rəngə boyayırlar. Həmçinin, bütün bıçaqlar gizlədilir, çünki yeni il ərəfəsində kimsə evdə özünü kəsərsə, bütün ilin pis keçəcəyinə inanılır. Bıçaqları olmadığı üçün çinlilər bişirdikləri hinduşkaları kunq-fudan istifadə edərək tikə-tikə doğrayaraq servis edirlər.

**Yunanıstan**

Yeni il ərəfəsində onlar yenidən doğulmağı simvolizə edən soğanı qapılarının qabağına asırlar. Onların yeni il adətlərindən biri də səhəri evdə uşaqların başlarına eyni soğanla vuraraq oyatmaqdır. Uşaqlarından gec oyanan yunan valideynlər illərlə yığılmış qəzəblə üzləşirlər.

**Rumıniya**

Rumıniyalı fermerlər Yeni il ərəfəsində öz heyvanları ilə ünsiyyət qurmağa çalışırlar. Heyvanlar cavab verərsə, bunun gələn il üçün uğurlar gətirəcəyi düşünülür. Fərasətli Rumıniyalı fermerlər tutuquşular və quş quşları alırlar.

**Çexiya Respublikası**

Ümumi çex inancına görə, Yeni il ərəfəsində almanı yarıya böldükdən sonra toxumların yerləşdiyi ərazinin formasına baxaraq gələn il haqqında proqnoz verə bilərsiniz.

*Ardı Səh. 12*



# Dünyada olan maraqlı Yeni il ənənələri



Əvvəli Səh. 11

**Belçika**

"Yeni il məktubları" belçikalı uşaqların ən sevimli Yeni il ənənəsidir. Onlar məktəbdə yazdıqları məktubları oxuyub mələklərlə, qızılgüllərlə, lentlərlə bəzədilmiş ailənin ağsaqqallarına Yeni il bayramında müraciət ediblər.

**Danimarka**

Danimarkalılar yeni il gecəsini qonşularının qapısı qarşısında boşqabları sındıraraq qeyd edirlər. İnanca görə qapınızın qarşısında nə qədər sınmış qab-qacaq və qab-qacaq görsəniz, yeni ilə bir o qədər şanslı girəcəksiniz. Beləliklə, onlar yeni il ənənələrinə sirtaki əlavə etdilər.

**Fransa**

Bir çox fransız yeni ili qalaq-qalaq "pancake" yeyərək qeyd edir. Blinçiklərə nə qoymağınız tamamilə sizə bağlıdır.

**Almaniya**

Almanlar mürəbbəli çörəklər yeyərək yeni ili salamlayırlar. Zarafat kimi bəzi mürəbbələrin içliyini, məsələn, xardalla dəyişirlər. Xardal çörəyinə kimin rast gəldiyinə inanılır ki, il boyu uğursuzluqlar yaşayacaq. Buna görə də çörəkləri yarıya bölüb, yeməkdən əvvəl içini yoxlamaq çox vacibdir.



**İtaliya**

Yeni il gecəsində qırmızı alt paltarı geyinmək tendensiyasını başladan insanlar italyanlardır. Yeni ilə qırmızı alt paltarı geyinərək girməyin uğurlar, firavanlıq və sevgi gətirəcəyinə inanmaq İtaliyadan yayılmış bir ənənədir. Bu səbəbdən Yeni ilin qırmızı alt paltarı istehsalçılarına firavanlıq gətirdiyi şübhəsizdir.

**İspaniya**

Bir çox ispanlar və cənubi amerikalılar Yeni ilə xoşbəxtlik gətirmək üçün saat gecə yarısı 12 dəfə vuranda 12 üzüm yeyirlər. Yeni il şənliklərində 12 ədəd üzüm olmayan salxımlar qadağandır.

**Hollandiya**

Köhnəni yola salmaq və yenisini qarşılamaq üçün Hollandiya Yeni il ağaclarını tonqal kimi yandırır və bütün səmanı atəşfəşanlıqla bəzəyir.

**Böyük Britaniya**

İngilislər və krallığa bağlı olan digər xalqlardan olan insanlar əl-ələ verib bir dairə təşkil edirlər.

**Norveç**

Kransegeke norveçlilərin imtina edə bilmədiyi ənənəvi Yeni il desertidir. Marzipandan hazırlanan bu çox qatlı tort bayraqlarla bəzədilib və norveçlilər Yeni il gecəsini bu tortu yeyərək keçirirlər.

**İsveçrə**

Əgər yeni ilin sizə bəxt və zənginlik gətirməsini istəyirsinizsə, İsveçrə ənənəsinə görə, Yeni il günü evin döşəməsinə biraz qaymaq tökmək kifayətdir.

**Macarıstan**

Budapeştin nəhəng qum saatında qumun düşməsi üçün tam bir il lazımdır. Yeni ildə poladdan hazırlanmış nəhəng qum saatı yenidən işləmək üçün seçilmiş dörd nəfər tərəfindən fırlanır.

**Filippin**

Filippində dairəvi formalar müqəddəs sayılır. Yeni il günü insanlar xallı paltar geyinir, dairəvi yeməklər yeyir, qablara pul atırlar ki, bütün il məhsuldar olsun.

**Sibir**

Yeni il ərəfəsində təsadüfən Sibirdə olsanız, insanların buzun altına yerləşdirmək üçün apardıqları ağac gövdələri ilə donmuş gölə daldığını görsəniz, təəccüblənməyin. Bu onlar üçün bir ənənədir.



**Birma**

Birmada insanlar yeni ili şlanq və vedrələrlə bir-birinin üstünə su çiləyərək qeyd edirlər. Hətta ondan bir festival təşkil edirlər.

**Sinqapur**

Hər Yeni il gecəsi dünyanın hər yerindən insanlar Sinqapur çayına arzularının yazılmış ağ kürələri atmaq üçün toplaşır və yeni ildə arzularının gerçəkləşməsini gözləyirlər.

**Belarusiya**

Subay qadınlar toplanır, hamı öz qabağında qarğıdalı dənələri yığını yaradır, bir xoruz buraxılır və xoruzun qarğıdalı yediyi yığını olan qadının əvvəlcə evlənəcəyinə inanılır.

**Finlandiya**

Yeni il ərəfəsində finlər arasında qalay tökmə çox yayılıb. Ərinmiş qalay soyuq su ilə doldurulmuş bir vedrəyə tökülür. Gələn ilin taleyi soyudulmuş qalaydan alınan formalara görə deyilir.

**Estoniya**

Yeni il gecəsi gündəlik yeməklərin sayını yeddi, doqquz və ya on ikiyə çatdırmaqla qeyd olunur. Xoşbəxtlikdən bu hiylələrə görə estoniyalılar düşünürlər ki, nə qədər çox yeyə bilsələr, gələn il məhsulu bir o qədər bol olacaq. Burada həkimlər yeni il şənliklərində belə işləməli olurlar, mədə pozğunluğu halları o qədər çoxdur.

**Cənubi Afrika**

"Köhnəyə əlvida, yeniyə salam". Cənubi Afrikanın bu məşhur deyiminə sadiq qalaraq, Yohannesburq sakinləri Yeni il gecəsi bütün köhnə məişət texnikasını pəncərələrindən çölə atırlar.

**Makedoniya**

Makedoniya pravoslav təqviminə uyğun olaraq, makedoniyalılar yanvarın 14-ü ikinci Yeni il gecəsi kimi qeyd edirlər. Valideynlər və qohumlar ailənin kiçik uşaqlarına hədiyyələr verirlər.

**İslandiya**

İslandiyada yeni il bayramı başqadır. Bu ölkənin insanları Yeni il gecəsi evlərə cinlərin girdiyinə, ölülərin dirildiyinə, suitilərin insan şəklinə girdiyinə və inəklərin danışa bildiyinə inanır.

**İrlandiya**

Subay qadınlar yeni ilin onlara ər gətirəcəyi ümidi ilə yastıqlarının altına ot qoyurlar. Bundan əlavə, İrlandiya ənənəsinə görə, Yeni il gecəsi çörəyi divardan asmaq pis ruhları qovur.

**Portuqaliya**

Ölkənin şimal bölgələrində uşaqlar "Janeyros" da adlandırılan Milad mahnılarını oxuyaraq evləri dolaşır və əvəzində konfet və pul alırlar.

**Şotlandiya**

"Hogmanay" kimi tanınan Şotlandiya ənənəsinə görə, gecə yarısından sonra evə ilk girən qonaq bəxt gətirir. Şotlandlar qonaqlarının ən qarasaçlı olanına kömür və meyvəli tort təqdim edirlər. Meyvəli tort üçün saçınızı tünd rəngə boyamaq Şotlandiyada böyük ayıb sayılır.

**Braziliya**

Hər il minlərlə braziliyalı Dənizlər ilahəsinə qurban olaraq okeana ağ çiçəklər atır. Beləliklə, dənizlər ilahəsinin qarşıdakı ildə arzularını yerinə yetirəcəyinə inanırlar.

**Kanada**

Qütb ayısının üzməsi kimi tanınan Yeni il ənənəsi 1920-ci illərdə Kanadada başlayıb. Bu ənənəyə görə kanadalılar yeni ili İngilis körfəzinin dondurucu sularına atılaraq qeyd edirlər.

**Argentina**

Argentina ənənəsinə görə, Yeni il gecəsi çəhrayı alt paltarı geyinmək bəxtinizi artırır. Yeni il günü lobya yeməyin işdə uğur və ya daha yaxşı iş gətirəcəyinə də inanılır.

**Çili**

Talkadan olan ailənin Yeni il gecəsi qəbiristanlığa girməsi Çilidə yeni ənənəyə çevrilib. İndi bütün insanların ziyarət edə bilməsi üçün qəbiristanlıqlar Yeni il gecəsi açıq saxlanılır.

**Boliviya**

Boliviya ənənəsinə görə, yeni ildə daha şanslı olmaq üçün Yeni il ərəfəsində sarı alt paltarı geyinmək lazımdır.

**Kolumbiya**

Səyahət və əyləncə ilə dolu bir il keçirmək istəyən kolumbiyalılar dekabrın 31-i boyunca çamadanlarını daşıyırlar.

**Ekvador**

Ekvadorda Yeni il gecəsi ötən il çəkilmiş fotoşəkillərdən yaradılmış şəkillərin yandırılması ilə qeyd olunur. Bundan əlavə, bəzi kişilər ötən ilin gəlinlərini təmsil etmək üçün qadın kimi geyinə bilərlər.

**Nyu York**

1907-ci ildən Nyu-Yorklular Tayms Meydanına toplaşır və düz 12:00-da yerə düşən rəngli kristal Yeni il topunu izləyirlər.

**Panama**

Panamalılar yeni ildən şər ruhları uzaqlaşdırmaq üçün yeni ili siyasətçilərin və məşhur insanların simasını yandıraraq qeyd edirlər.

**Peru**

Peruda bir kənddə insanlar yeni ilə bir-biri ilə yumruq davası ilə başlayır. Onlar bu yolla bütün problemlərin həll olunacağına və yeni ildə yeni səhifə açacaqlarına inanırlar. Ən sərt Yeni il ənənələri siyahısında birinci yerə zəmanət verilir!

**Yaponiya**

Yaponiyada yeni ilin gəlişi Buddist məbədlərində 108 dəfə zəng çalmaqla qeyd olunur, hər zəng Buddizmdə günahı simvollaşdırır. Yaponlar bu yolla bütün günahların bağışlandığını düşünürlər.

**Meksika**

Yeni il gecəsi meksikalılar evlərini müxtəlif rənglərlə boyayırlar. Hər rəng yeni il üçün fərqli bir ümidi simvollaşdırır: Qırmızı sevgi axtaranlar üçün, sarı iş istəyənlər üçün, yaşıl pul gözləyənlər üçün...

***Ayşən Vəli***

# Ermənistanın mina terroru...

## Vətən müharibəsindən sonra 382 nəfər mina qurbanı qeydə alınıb, onlardan 70 nəfəri həlak olub

***Layihə çərçivəsində keçirilən sorğulara 866 nəfər minadan zərərçəkmiş şəxs cəlb olunub. Tədqiqatın nəticələrinə əsasən, mina və partlamamış hərbi sursatlar (PHS) nəticəsində insanların həyatına və sağlamlığına ciddi təsirlər baş verməkdədir. Bu məlumatlar mina/PHS hadisələrinin qarşısının alınması, zərərin azaldılması və zərərçəkənlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün effektiv proqramların hazırlanmasında istifadə ediləcəkdir.***
















Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatına görə, Vətən müharibəsindən sonra 382 nəfər mina qurbanı qeydə alınıb, onlardan 70 nəfəri həlak olub, 312 nəfəri isə müxtəlif dərəcəli xəsarət alıb. Bu hadisələrin 70%-i keçmiş təmas xəttindən kənarda mülki ərazilərdə qeydə alınıb. Dövlət orqanları və qeyri-hökumət təşkilatlarının həyata keçirdikləri maarifləndirmə və məlumatlandırma tədbirləri nəticəsində son illərdə mina qurbanlarının sayında azalma müşahidə olunub.

Mina terrorunun davam etməsinin səbəblərindən biri də Ermənistanın üzərinə götürdüyü öhdəliklərin əksinə olaraq dəqiq mina xəritələrini Azərbaycana təqdim etməməsidir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistan bir neçə mina xəritəsini Azərbaycana təhvil versə də onlar qeyri-dəqiq olub. Rəsmi İrəvanın təqdim etdiyi xəritələrin dəqiqliyi yalnız 25 faiz təşkil edib. Cari ilin fevral ayında Ermənistan tərəfi Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki mina sahələrinə dair 8 formulyar təqdim etmişdi. Bu formulyarlar əsasən Kəlbəcər rayonu və Murovdağ silsiləsini əhatə edən minalanmış ərazilərə dair qeydlərdən ibarət idi. Lakin burada da məlumatlar qeyri-dəqiq və etibarsız olub. Azərbaycanın minalardan ən çox zərərçəkən ölkələrdən biri olmasına baxmayaraq, dəqiq mina xəritələrinin təqdim olunması və mina təhdidinin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyət Ermənistana təzyiq göstərmir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dekabrın 12-də jurnalistlərə açıqlamasında bildirib ki, minaların təmizlənməsi zəhmət və maliyyə tələb edir: ”Bir çox hallarda mina qurbanları mülki insanlardır. Minalar mülki insanların azad ərazilərə qayıtmasını çətinləşdirir. Ermənistanın təqdim etdiyi mina xəritəsinin dəqiqliyi çox deyil”.

Beynəlxalq ictimaiyyətin Ermənistana təzyiq göstərməməsi mina təhdidinin daha da genişlənməsinə və humanitar fəlakətlərin davam etməsinə səbəb olur. Otuz il ərzində Ermənistanın işğal altında saxladığı və Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunan Qarabağ və Şərqi Zəngəzurda təxminən 1,5 milyon mina basdırılıb. Hətta 2020-ci ildə 10 noyabr Bəyanatına əsasən Ağdamı, Kəlbəcəri və Laçını tərk edən ermənilər xain xislətlərinə uyğun olaraq həmin yerləri də əlavə minalarla kortəbii şəkildə çirkləndiriblər. Həmin minaların partlaması nəticəsində yüzlərlə azərbaycanlı ya həlak olub, ya da ağır bədən xəsarətləri alıb.

Azərbaycan düşmənin bu kimi çirkin əməlləri qarşısında humanitar minatəmizləmə fəaliyyətini dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirib. Hazırda bu minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu daxili resurslar hesabına həyata keçirilir. Azərbaycanın mina təhlükəsizliyinin təmin olunması istiqamətində gördüyü genişmiqyaslı tədbirlər yalnız praktiki səylərlə məhdudlaşmır. Eyni zamanda, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi də xüsusi önəm daşıyır. Bu kontekstdə, Milli Məclisdə ”Minatəmizləmə fəaliyyəti haqqında” yeni Qanunun qəbul olunması mina əleyhinə fəaliyyətlərin sistemli şəkildə həyata keçirilməsində mühüm addımdır.

Üç fəsil, 14 maddədən ibarət Qanun Azərbaycanda mina əleyhinə fəaliyyətin, o cümlədən minatəmizləmə fəaliyyətinin təşkilinə və həyata keçirilməsinə şamil ediləcək. Sənəd Azərbaycanın Silahlı Qüvvələri tərəfindən Azərbaycanın təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə aparılan mina əleyhinə fəaliyyətə şamil edilməyəcək. Minatəmizləmə fəaliyyətinə dair informasiya sistemi haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq ediləcək. İnsanların həyat və sağlamlığına, əmlakına ziyan vurulmasının qarşısının alınması məqsədilə təhlükəli ərazilərin sərhədlərində xəbərdarlıq nişanlarının yerləşdirilməsi səlahiyyətli qurum və ya həmin ərazidə minatəmizləmə fəaliyyətini həyata keçirən icraçılar tərəfindən təmin olunur. Zərərçəkmişlərə ”Psixoloji yardım haqqında” və ”Əhalinin sağlamlığının qorunması haqqında” qanunlara uyğun olaraq ödənişsiz psixoloji və tibbi yardım göstəriləcək. Mina əleyhinə fəaliyyət dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcək. Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyacaqlar.

Sonda dekabrın 9-dan 15-dək minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə 24 tank əleyhinə mina, 73 piyada əleyhinə mina, 612 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib. Son bir həftədə 722 hektar ərazi minalardan təmizlənib.

***Nigar Orucova***

# “Ermənistanın konstitusiyasında hələ də Azərbaycana qarşı...”





”2025-ci ildən, təbii ki, hər kəsin gözləntisi var, amma bu gözləntilərin nə qədər reallığa çevrilib, yaxud çevrilməyəcəyi başqa mövzudur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib. O bildirib ki, Azərbaycan və Ermənistan arasındakı danışıqlar 2024-cü ildə də müəyyən intensivliklə davam etdi: ”Artıq hər iki tərəfin təsdiq etdiyi kimi danışıqlar masasında sülh müqaviləsinin 17 bəndindən 15-i razılaşdırılıb. Lakin qalan iki məsələ üzərində hələ də anlaşmalar yoxdur və təbii ki, bu Ermənistan tərəfindən ləngidilir. Xüsusən də, Azərbaycanın tələblərindən biri ondan ibarətdir ki, konstitusiyada dəyişikliklər həyata keçirilsin, çünki Ermənistanın konstitusiya və qanunverici aktlarında hələ də Azərbaycana qarşı ərazi iddiaları yer almaqdadır. Ermənistan isə referendumun yalnız 2027 - ci ildə keçiriləcəyi ilə bağlı açıqlamalar verir ki, bu da tam və hərtərəfli sülh müqaviləsinin 2027-ci ildə imzalana biləcəyinə işarət edir. O dövrə qədər digər məsələlər hansı ki Azərbaycan tərəfindən irəli sürülür, bunlar ATƏT-in MİNSK qrupunun buraxılması ilə bağlı birgə müraciət edilməsi, Azərbaycan və Ermənistanın şərti sərhədində dayanan Avropa İttifaqının mülkü adlandırılan casus şəbəkəsinin çıxarılmasıdır ki, bu missiya faktiki olaraq Avropa İttifaqı missiyasından çıxarılaraq Atom missiyasına dönüşməkdədir. Nəzərə alsaq ki, sərhəddə fransız mütəxəssislərinin iştirakı ilə hərbi məntəqələr, tunellər tikilir. Bu onu göstərir ki, Ermənistan sülhdən daha çox savaşa hazırlanır. Təbii ki, bu, Ermənistanın daxili iradəsində olan məsələ deyil, onu təşviq edən qüvvələr var. Bu kollektivlər 5 aprel şərəfli görüşdən sonra Ermənistana hərbi dəstəyini intensiv şəkildə artırıblar. Artıq Amerika, Hindistan, Fransadan hücüm silahları verilir ki, bunlar bölgədə gərginliyi artıran ciddi amillərdir”.

Onun sözlərinə görə, digər məsələ Ermənistanın beynəlxalq səviyyədə iddialar qaldırmasıdır: ”Ermənistan 30 illik işğaldan dərs çıxarmayaraq bizə qarşı həyasızcasına müxtəlif iddialar qaldırmağa çalışır ki, Azərbaycan bunu da qəbul edilməz hesab edir. O baxımdan 2025-ci ildə tərəflər arasında sülh müqaviləsinin imzalanması ilə bağlı hazırki durum haqqında çox da optimist fikirlər söyləmək mümkün deyil. Təbii ki, Güney Qafqazda, dünyada baş verən proseslərin tərkib hissəsidir və nəzərə alsaq ki, Qərblə Rusiya arasında geopolitik bir savaş getməkdədir. Tramp andiçmə mərasimindən sonra hakimiyyətdə olduğu dövrdə onun izləyəcəyi siyasətdən çox şey asılı olacaq. Yəni Ukrayna və Rusiya savaşı dayanacaqsa, həmçinin yaxın şərqdə də proseslər durulmağa gedəcəksə, təbii ki, Güney Qafqazda da sülh istiqamətində addımlar atıla bilər, lakin proseslər əksinə də ola bilər. Bir daha qeyd etmək istərdim ki, Ermənistan müstəqil dövlət, müstəqil siyasət nümayiş etdirə və müstəqil qərarlar verə bilmədiyindən o, Paris, Brüssel və Vaşinqtonun mövqeyindən asılı olacaq”.

**_Söylü Ağazadə_**

# Bakı kəndlərinə niyə yeni avtobuslar verilmir?

*EKPSERT VƏ QURUMDAN AÇIQLAMA*



”Bakı kəndlərinin marşrut problemlərinin həllinə müəyyən dərəcədə dəstək olmaq, çıxış yolunu tapmaq üçün aidiyyatı dövlət qurumları bu barədə müəyyən işlər görürlər”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib. O bildirib ki, bununla bağlı artıq Bakı kəndlərinin bir çox istiqamətləri üzrə yeni avtobuslar verilir: ”Abşeron rayonu istiqamətində və yaxud ona bitişik kəndlərdə isə bu proses ləngiyir. Buna səbəb infrastrukturun yenilənməsi, yolların yenidən çəkilməsidir. Bunlara ehtiyac var. Bu səbəbdən də proses ləngiyir”.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) isə bildirilib ki, əhalinin mobillik imkanlarının yaxşılaşdırılması və ictimai nəqliyyatın əlçatanlığının təmin olunması məqsədilə bir ildən çoxdur ki, mobilliyin transformasiyası proqramı həyata keçirilir: ”Əhalinin ictimai nəqliyyata əlçatanlığının artırılması, xidmət səviyyəsinin yüksəldilməsi, sərnişinlərin daha rahat və sürətli daşınmasının təmin olunması üçün yeni marşrut və əlaqələndirilmiş avtobus zolaqları şəbəkəsi hazırlanıb və tətbiqinə başlanılıb. Yeni marşrut şəbəkəsinin tətbiqinə ilk olaraq Bakı şəhərinin kənd və qəsəbələrindən başlanılıb.

Avtobus parkının yenilənməsi və genişləndirilməsi istiqamətində də işlər aparılır. Son bir ildə yalnız Bakı şəhərində 200-dən çox avtobusun istismara verilməsi təmin edilib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən sərnişindaşıma imkanlarının yaxşılaşdırılması üçün xətlərə buraxılan avtobusların sayı artırılıb. 2022-ci ilin sentyabr ayında Bakı şəhəri üzrə sərnişindaşımada 1780 avtobus istismar edilirdisə, 2023-cü ildə bu say 2011-ə çatdırılıb. Bu ilin müvafiq dövründə daha 170 avtobus marşrut xətlərinə cəlb edilib. 160 yeni elektrik avtobusunun da sərnişinlərin xidmətinə verilməsi ilə bu say 2300-ü ötüb. Hədəf isə sərnişinlərə xidmət göstərəcək avtobusların sayının 2500-ə çatdırılmasıdır.

Sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılması, həmçinin marşrutların təhkim edilməsində şəffaflığın təmin edilməsi məqsədilə şəhərlərarası və şəhərdaxili marşrut xətləri müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq, mərhələli qaydada müsabiqəyə təqdim edilir. Müsabiqənin şərtlərindən biri də avtobusların daha yeni olmasıdır. Müsabiqə ”Avtomobil nəqliyyatı haqqında” Qanuna, Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmiş ”Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası”na uyğun olaraq təşkil edilir”.

**_Seyranə Quliyeva_**



**Təhmasib Novruzov**

# Allegorik siyasi nağıl!

***Çox düşündüm, çox daşındım, dağı arana daşıdım, aranı dağa daşıdım, üzümü tutub uzaq bir yola çıxdım, az getdim, üz getdim,dərə, təpə düz getdim, iynə yarım yol getdim, axır ki, bölgəmizdəki indiki durumu krılovvarı təhlil etməyə qərar verməli oldum. Yoxsa bölgəmizdəki bəzi-bəzi toplumları adi adamvari dillə başa salmağın mümkün omadığı göz qabağındadı...***

Biri vardı, biri yoxdu, dünyanın ən münbit torpaqlarından olan Qafqazda çoxlu-oxlu məxluqlar yaşayırdı. Bu məxluqların hamısı özünə, gücünə arxayın olan, özünü idarə etməyi bacaran canlı varlıqlar olsa da, cinsi, kimliyi, hansı bioloji fəsilə daxil olması mənum olmayan bir məxluq da vardı ki, bu zavallı heyvancığaz gah tülkü olurdu, gah pişik, gah da siçan. Hərdən də uzaq-uzaq torpaqlarda yaşayan hansısa canlıların qazlaması ilə şişib olurdu ”əjdaha” və başlayırdı sağa-sola od püskürməyə. Elə ki, onu qazlayanların özlərinin qazı tükənirdi və bu məxluqa ”qaz” vura bilmirdilər, o saat kiçilib olurdu siçan.

Beləcə, kimliyi bilinməyən bu məxluq hindistandanda sifətini açandan sonra qovulub göndərildi avropaya, orda da maskası düşdü və siçanlığı üzə çıxdı, qovdularr, gedib çıxdılar felikiyaya. Buraların sahibi olan boz qurdlar yurdsuz qalmış bu siçan sürüsünə dayaq durdu ki, yazıqdılar, yaşasınlar. Az keçmədi ki, bu siçan sürüsünü burda da qazladılar, yığışıb bir yerə dedilər ki, gəlin bu qurdları içindən yeyək, çürüsünlər, torpaqları da qalsın bizə. Amma qurd da qurddur. Duyuq düşən kimi, bir dəfə bərkdən ulayıb, dal-qabaqlarını kəsib dedilər cəhənnəm olun, hara istəyərsiniz gedin. Siçanlar gördülər ki, yox, qurdlarla bacara bilməzlər, onları qazlayanların da ”qaz” balonları işləmir, ordan qaçıb töküldülər ayılarla bir yerdə dil tapıb yaşayan başqa qurdların torpağına. Ayı ağırtaxtalı olur deyə, siçanların keçmişinə əhəmiyyət vermədi, gətirib onları yığdı ”dost” qurdların yanına. Sonra da, siçanların onlara lazımlı olduğunu, yəni tülkü xislətlərinin ayılara gərəkli olacağını fikirləşib, onlara bir ərazi də yaratdı və həmin ərazilərin sahibi olan qurdlara xahiş elədi ki, dəyməyin, yazıqdılar, qoyun önların öz əraziləri olsun ki, ona-buna cığıldamasınlar. ”Dost” qurdlar da ayının bu xahişini geri çevirmədi, öz torpaqlarından bir az ayırıb verdilər siçanlara. Beləcə, iki qurd diyarının, bir ayı və bir xoruz məmləkətlərinin ortasında siçanlar özlərinə yuva qurmağa başladılar.

Nağıl dili yüyrək olar, deyiblər. Aylar keçdi, illər ötdü, bu siçanlar tülkü xislətlərini işə salıb ayıların sayəsində torpaqlarını xeyli böyütdülər. Qurdlar da ”dostları” ayının xatirinə siçanların bu ərköyünlüklərinə dözdülər. Ta o vaxta kimi ki, siçanlar ayıya arxalanıb, dedilər ki, bütün qurdlar bu yerlərdən çıxsın, buralar hələ meymun olduqları vaxtdan onların əraziləri olub. Qurdlar az dedi, çox dedi, siçanlar dediklərini deyib durdular. Axırda qurdların səbr kasası doldu və ayının da, xoruzun da, filin də, hətta uzaqdakı şirin də xahişlərini eşitməyib, siçanlara siçanlıqlarını sübut elədilər və civildəşə-civildəşə girməyə deşik axtardılar. Bundan guya hiddətlənən siçanlar ayı ağalarından küsüb, dedilər ki, biz daha ayı ilə dost olmuruq. Düşdülər dünyanın canına ki, özlərinə yeni dost, yəni ağa, arxa, kömək tapsınlar. Birinci iki xoruz tayfasını tapıb, onları çəkdilər özlərinə tərəf. Başladılar siçanlara oxdan, yaydan verməyə ki, güclənib qurdlardan qisas alsınlar. Uzaqdakı fil də, şir də boş dayanmayıb siçanlara ağa olmağa can atdılar və başladılar yaydan, oxdan ərməğan eləməyə. Ayı bir-iki dəfə onlara başa saldı ki, yazıqsan, heç mən boyda ayı qurdlarla savaşa girməyə risk eləmədim, dünyanın o başından nə xoruz, nə fil, nə də şir qurdlarla sənə görə düşmən olası deyillər. Amma ha dedi, ha başa saldı, siçanlar eşitmədi ki, eşitmədi.Beləcə, bir tərəfində ayı, bir tərəfində qurdların ortasında qalan siçanlar elə bilirlər ki, uzaqdakı xoruz, fil, şir gəlib onları qurdlardan qoruyacaqlar...

Nağılın ardını saxlayıram bir-iki ildən sonra siçanların siçanlıqlarını dərk edib, qısılıb yerlərində oturub, qurdların ətəyindən öpüb, yapışdıqları vaxta...İndilikdə göydən üç yox, düz altı alma düşdü: biri siçanların, biri ayının, biri xoruzun, biri filin, biri şirin, biri də al-qırmızı, üstündə beşbucaqlı işarə olan sonuncu alma isə qurdların!

# Həmrəyliyin beynəlxalq mənzərəsi: bacardıqmı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*



***Beynəlxalq İnsan Həmrəyliyi Günü BMT-nin qərarı ilə 2006-cı ildən başlayaraq hər il dekabrın 20-də qeyd olunur. Həmrəylik mədəniyyətinin inkişaf etdirilməsi və ortaq məsuliyyət konsepsiyasının təşviq edilməsinin, yoxsulluğun aradan qaldırılması üçün mübarizənin vacib komponentləri olduğu qənaətində olan BMT bu günün dünya insanlarının kontaktında və həmrəyliyindəki payının xüsusi olduğunu düşünür.***

Həmrəylik kiminsə hərəkətlərinə və ya fikirlərinə olan fəal simpatiyadır, maraqların birliyidir, yekdillikdir. Həmrəylik ortaq məsuliyyətdir. Beynəlxalq İnsan Həmrəyliyi Günü insanları hər vəziyyətdə əhəmiyyətli hesab edir, insan faktorunun birinci məsuliyyət olduğunu bildirir, insan hüquqları standartlarına əsaslanır və yenilənmiş qlobal tərəfdaşlığı əhatə edir. Bu gün müxtəlifliklik içində birliyimizi qeyd etdiyimiz bir gündür. Beynəlxalq Həmrəylik Günün hökumətlərə beynəlxalq müqavilələr üzrə öhdəliklərinə hörmət etməli olduqlarını xatırladır, həmrəyliyin əsas dəyər kimi ictimaiyyətə çatdırılmasını təşviq edir, yoxsulluğun aradan qaldırılması da daxil olmaqla Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün həmrəyliyin qurulmasına xidmət edir.



Həmrəylik maraqlar birliyinə və ümumi qrup məqsədlərinə nail olmaq ehtiyacına, birgə məsuliyyətə əsaslanan cəmiyyətlərin qarşılıqlı yardım və dəstəyidir. Hələ 2002-ci ildə BMT Baş Assambleyası Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) etimad fondu kimi Dünya Həmrəylik Fondunu təsis edib. Onun məqsədi inkişaf etməkdə olan ölkələrdə, xüsusən də ən yoxsullar arasında yoxsulluğun aradan qaldırılması və insan və sosial inkişafı təşviq etməkdir. Dünya Həmrəylik Fondunu dəyişikliklərin tərəfdarıdır və insanların həyatını yaxşılaşdırmaq üçün bilik, təcrübə və resurslara çıxışı təmin edir. Bu struktur 170 ölkə və ərazidə fəaliyyət göstərir.

Hər il müəyyən bir istiqaməti əsas götürən Beynəlxalq İnsan Həmrəyliyi Günü jurnal məqalələri, rəsmi tədbirlərdə çıxışlar, ayrı-ayrı şəxslərin, qrupların və maraqlı təşkilatların bloq yazıları da daxil olmaqla, bütün KİV-lərdə işıqlandırılır. ELəcə də ölkəmizdə bu günün tarixi, əhəmiyyəti, öhdəlikləri ilə bağlı media nümunələri dərc edilir. Bu günün əhəmiyyətini təbliğ edən sənədlər və materiallarda BMT-nin emblemini görmək olar - Antarktidadan başqa bütün qitələri əhatə edən Şimal Qütbündə yerləşən Yerin proyeksiyası və uzunluq səviyyələrini təmsil edən dörd konsentrik dairədən söhbət gedir. Proyeksiya sülhü simvolizə edən zeytun budaqları ilə əhatə olunub. Beynəlxalq Həmrəylik Günündə BMT hökumətlərə beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə hörmət etməyi xatırladır.



Həmrəylik, maraqların, məqsədlərin və standartların ümumiliyini yaradan və ya bunlara əsaslanan insan cəmiyyəti məcmusudur. Bu anlayış cəmiyyətdə insanları vahid bütövlükdə birləşdirən əlaqələrə aiddir. Həmrəylik dünyanı xilas edəcək, çünki həmrəylik sayəsində insanlar bir-birinə daha da yaxınlaşır. Onlar anlayırlar ki, bu dünya hamımızındır, hər hansı bir təhlükə hər kəsə təsir edə bilər, hər hansı faydalı iş hamının xeyrinə ola bilər. Həmrəylik birlikdir, hər kəsə və hər zaman lazım ola biləcək qarşılıqlı yardımdır.

İnsan şüurlu varlıqdır, o, instinktiv şəkildə hərəkət etmir, müəyyən analiz aparır, düşünür, təhlil edir və qənaətə gəlir. Bütün insanların ehtiyacları var və bunlar yalnız maddi ehtiyaclar deyil. Bizim ünsiyyət yaratmağımız, münasibət qurmağımız üçün də təminat olmalıdır. Sovet psixoloqu Lev Vıqotskinin mədəni-tarixi konsepsiyasına görə, bizim varlığımız həmişə sosial xarakter daşıyır. Yəni, insan sosial varlıqdır və özülündə ünsiyyət durur. İnsanın zehni və şəxsi inkişafı başqaları ilə qarşılıqlı əlaqədə olarkən fəaliyyətdə olur. Əgər insanlarla təmasda olmasaydı insan danışmağı öyrənə, şüurunu inkişaf etdirə, yəni şəxsiyyətə çevrilə bilməzdi. Sosiallaşma insanın cəmiyyətdə böyüməsi, mədəni-tarixi təcrübənin mənimsənilməsi zamanı baş verir, həmrəylik sosiallaşmadan doğan vəziyyətdir. İnsan sosiallaşdıqca alternativ fikirləri, fərqli düşüncələri görür, öyrənir. Zamanla fərqli düşüncəyə baxışı formalaşır, həmrəyliyin düsturunu öyrənir. Dünya bir gün müharibəsiz, xaosuz, qarşıdurmasız planetə çevriləcək, əgər bütün dünya insanları həmrəy ola bilsə.

***Lalə Mehralı***

# Məktəblərdə psixoloji zorakılığa qarşı mübarizə yolları necə olmalıdır?

**"Psixoloji zorakılıq yalnız müəllim tərəfindən şagirdinə qarşı edilən neqativ hərəkət deyil". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib. O bildirib ki, istənilən şəxslər arasında psixoloji zorakılıq ola bilər: "Məktəbdən kənar da uşaqlar, hətta böyüklər də psixoloji zorakılığa məruz qala bilər. Psixoloji zorakılığın harada və kimlər arasında olmasından asılı olmayaraq hüquqi cəzası mövcuddur.**

Müəllimin şagirdə qarşı etdiyi kinayə, istehza, rişxənd, şəxsiyyətin alçaldılması kimi psixoloji zorakılıq şagirdin səhhətində funksional dəyişikliklərə və məktəbdən uzaqlaşmasına səbəb olur. Çoxsaylı alimlərin araşdırmaları göstərib ki, müəllimlərin zorakılıq hərəkətlərinə məruz qalan ibtidai sinif şagirdləri bacarıqlarını daha az göstərirlər və onların sosial səriştəliliyi aşağı olur. Belə zorakılıq uşaqlarda çoxlu problemlər yaradır: aqressiya, natamamlıq kompleksi, qeyri-qənaətbəxş olma hissi, stress və s. Zorakılığın mənbəyini sevmək, sahiblənmək, qorumağın ("Sənin yaxşılığını istədiyim üçün bunu edirəm", "Səni sevirəm ona görə") əksinə olaraq, güc və nəzarət etmə istəyi təşkil edir. Zorakılıq edən insanın yeganə məqsədi qarşısındakına nəzarət etməklə özünü "güclü" hiss etməkdir. Nəzarət etdiyi şəxs onun üçün sadəcə bir "obyekt"dir.



Psixoloji zorakılıq insanın "mənlik şüuru"nu, özünə olan hörmətini və sevgisini, özünü düzgün qavramasını ciddi şəkildə təxribata məruz qoyur. Zorakılıq edilən şəxs özünü dəyərsiz və ümidsiz hiss edir. Qorxu və narahatlıq içində getdikcə daha çox özünə qapanmağa başlayır. Bu vəziyyəti müşayiət edən utanc və günahkarlıq duyğuları isə insanın özünü ətrafından təcrid etməsinə, tənhalığa və ümidsizliyə səbəb olur. Psixoloji zorakılıq uşaqların təfəkkür, yaddaş, qavrama, diqqət, təxəyyül kimi idrak proseslərinə, həmçinin sosial və əxlaqi dəyərlərinin düzgün formalaşmasına mənfi təsir göstərir. Bu vəziyyət isə zehni qabiliyyət və məktəb uğurunun azalmasına səbəb olur. Müəllim tərəfindən psixoloji zorakılığa məruz qalan şagirdin bu vəziyyəti yaxınları ilə bölüşməməsi və ya həyatın reallığı kimi qəbul etməsi bu məsələ ilə bağlı problemlərin mühüm bir hissəsini təşkil edir. Psixoloji zorakılıq nəticəsində zorakılığa məruz qalan uşaq özünə qapanır və depressiyaya meyillilik artır".

"Müəllim haqqında şikayət olduğu halda, məktəb rəhbərliyi məsələni araşdırmalı və müəllimə intizam tədbirləri tətbiq edə bilər. Bu xəbərdarlıq, töhmət və ya işdən azad edilmə formasında ola bilər. Psixoloji zorakılıq ciddi zərərlərə səbəb olarsa, daha dəqiq desək, şagirdin psixoloji sağlamlığına təsir edərsə, müəllim qanun qarşısında cavab verə bilər. Azərbaycanın qanunvericiliyində psixoloji zorakılıq "uşaqların hüquqlarının pozulması" kimi qiymətləndirilir və məsuliyyət tələb edir. Psixoloji zorakılıq faktı sübuta yetirilərsə, müəllim peşə fəaliyyəti ilə məşğul olmaqdan məhrum edilə bilər" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

SON SƏHİFƏ
SƏS
20 dekabr
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qışqıraraq danışmaq: MƏDƏNİYYƏTSİZLİK?



© Michaela Begsteiger/imageBROKER/picture alliance

*PSİXOLOQ FİKRİ*

"İnsanların qışqıraraq danışmasının bir çox səbəbi ola bilər və bu, həm psixoloji, həm də sosial faktorlardan qaynaqlana bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Onun sözlərinə görə, insanlar bəzən içlərində yığılıb qalan stressi idarə edə bilmədikdə bunu qışqırmaqla ifadə edirlər: "Bu, emosional boşalma üsuludur. Qəzəb və ya hiddət zamanı insanlar öz emosiyalarına nəzarəti itirərək daha yüksək səslə danışa bilərlər. Bu vəziyyət daha çox emosional tənzimləmə bacarıqları zəif olan insanlarda müşahidə edilir".

Zeynəb Eyyubova sözlərinə belə davam edib: "Bəzi insanlar hiss edirlər ki, qarşı tərəfə fikirlərini çatdırmaq üçün qışqırmaqdan başqa yolları yoxdur. Bu, aşağı özünəinam və ya kommunikasiyada çatışmazlıqdan qaynaqlana bilər. İnsanların danışıq üslubu çox vaxt onların böyüdükləri mühitdən asılıdır. Məsələn, qışqırmağın norma kimi qəbul edildiyi ailə və ya sosial mühitlərdə bu vərdiş halına çevrilə bilər. Bəzi hallarda qışqıraraq danışmaq qarşı tərəfə üstünlük qazanmağa çalışmaq və ya onu qorxutmaq məqsədi daşıyır. Bu, qeyri-etik davranışın göstəricisi ola bilər.

Qışqıraraq danışmaq bəzən mədəniyyətsizlik kimi qəbul edilə bilər, xüsusilə də səs tonu və davranış ətraf mühitə uyğun deyilsə. Ancaq unutmaq olmaz ki, bu, təkcə mədəniyyət deyil, həm də emosional vəziyyətlə əlaqədar ola bilər.

Psixoloq kimi menden sorussaniz ki İnsanlara emosiyalarını idarə etmək nece öyrədilməli və qəzəb anında sakitləşmə texnikaları nece tətbiq olunmalıdır? Buna bele yollar deye bilərəm:

- Kommunikasiya bacarıqları inkişaf etdirilməli və insanlar öz fikirlərini sakit, aydın və anlaşıqlı şəkildə ifadə etməyi öyrənməlidir.
- Ətraf mühitin və münasibətlərin insanın davranışlarına təsir göstərdiyini nəzərə alaraq, ailə daxilində və cəmiyyətdə hörmətə əsaslanan ünsiyyət mədəniyyəti yaradılmalıdır. Sonda qeyd etmək istəyirəm ki, qışqıraraq danışan insanı "mədəniyyətsiz" adlandırmadan öncə, onun emosional vəziyyətini, stress səviyyəsini və mühit faktorlarını nəzərə almaq lazımdır. Psixoloji dəstək və düzgün ünsiyyət modeli tətbiq edilərək bu problemi aradan qaldırmaq mümkündür".

***Ayşən Vəli***

## Tovuzda 55 şagird tüstüdən zəhərlənib



Tovuzda məktəbdə dəm qazından zəhərlənənlərin sayı məlum olub. TƏBİB-dən bildirilib ki, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə 19.12.2024 tarixində saat 11:00 radələrində Tovuz rayonu, Aşağı Quşçu kəndində yerləşən məktəbdə şagirdlər arasında dəm qazından kütləvi zəhərlənmə şübhəsilə çağırış daxil olub.

Qeyd edilib ki, çağırış ünvanına təcili tibbi yardım briqadaları cəlb olunub. "Saat 13:20 radələrinə olan məlumata görə, 55 nəfər Tovuz Rayonu Mərkəzi Xəstəxanasına hospitalizasiya olunub. Zərərçəkənlər Təcili və təxirəsalınmaz tibbi yardım, Reanimasiya, Cərrahiyyə və Yoluxucu xəstəliklər şöbəsinə yerləşdirilib. Onların hər birinə zəruri tibbi xidmətlər göstərilir ", deyə qurumdan əlavə edilib.

## Bu ölkə "TikTok"-la bağlı qadağanı ləğv edə bilər




ABŞ Ali Məhkəməsi "TikTok" sosial şəbəkəsinin aktivlərinin satılması və ya ABŞ-da qadağan olunması ilə bağlı qanunun Birinci Dəyişikliyi (First Amendment) pozub-pozmadığını nəzərdən keçirəcəyini açıqlayıb. Məhkəmə bildirib ki, "TikTok"un 10 yanvar tarixinə irəli sürdüyü arqumentlərə baxılacaq, lakin sosial şəbəkəsinin aktivlərinin satılması ilə bağlı son günün (19 yanvar) müəyyən edilməsi ilə bağlı qərarı qüvvədə qalacaq.

Qeyd edək ki, "TikTok" sosial şəbəkədən istifadənin qadağa olunmasının milli təhlükəsizliklə bağlı narahatlıqlarla əsaslandırılmasına dair Appeliyasiya Məhkəməsinin qərarının ləğvi üçün Ali Məhkəməyə müraciət edib. Konqres bu qanunu aprel ayında iki partiyanın böyük dəstəyi ilə təsdiq edib. Qanun layihəsinin tərəfdarları bildiriblər ki, "TikTok" milli təhlükəsizlik üçün risklər yaradır və Çin hökumətinin proqram vasitəsilə amerikalıları casusluğa cəlb edir və təbliğat aparır.

## ELAN

Suraxanı rayonu Qaraçuxur qəsəbəsi Səttar Bəhlulzadə adına Xarici dillər təmayüllü Gimnaziyanın 2007-ci il məzunu Hüseynov Elvin Baba oğlunun adına verilmiş Attestat itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**